509:1.QXD 09.12.2022 3:41 Page 1
www.arsivakurdi.org

KÜRD xalqı mübariz və qəhrəman xalqdır.
Heydər Əliyev

# DÎPLOMAT

№ 45 (509) 01-07 dekabr, Çileya pêş, sal. il 2022
Ji meha şûbatê sala 2003-a tê weşandin
Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî
Qiyməti: / Hêjaye: 40 qəpik

Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!
Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məscidləri.
Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.
Səbahəddin Eloğlu


Səh. 2

## Prezident İlham Əliyevin Albaniyanın Baş naziri Edi Rama ilə təkbətək görüşü olub


Səh. 10

## Peyama Serok Barzanî ji bo Konferansa Cîhanî ya Partiyên Demokrat


Səh. 11

## Nêçîrvan Barzanî û Balyoza Swêd Jessica Svardstrom civiyan


Səh. 12

Mesrûr Barzanî: Li dîrokê binêrin çandinî li vê herêmê derketiye holê, lê...


Səh. 3

Sumqayıt Dövlət Dram Teatrında "O olmasın, bu olsun"


Səh. 9

Dizeyi: KDP ile YNK arasında arabuluculuğa gerek yok!


Səh. 3

Daşkəsənin icra başçısı Əhəd Abıyev Şahvələdli kəndində vətəndaşların qəbulunu keçirib

## Prezident İlham Əliyev Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbərini qəbul edib Səh. 2

## Zəngəzurun Hacısamlı camaatı Səh. 6

## ŞƏRƏF XAN BİDLİSİNİN "ŞƏRƏFNAMƏ" ƏSƏRİ KÜRD XALQININ TARİXİ MƏNBƏYİ KİMİ Səh. 4

## Azərbaycanlıların deportasiyası və 1988-ci il faciəsi Səh. 7

## XX əsrdə erməni rəsmi dairələrinin kürdlərə qarşı həyata keçirdiyi deportasiya, repressiya və terror aktları haqqında Səh. 5

## Yekem car xwepêşanderekî di xwepêşandanên Jîna Emînî de hate darvekirin Səh. 10


Səh. 10

Dibe ku Îrana Xumeynî bi dawî bibe


Səh. 11

Rojavayê Kurdistanê di navbera dagîrkerî û êrîşên Tirkiyê de


Səh. 13

Hewramî: Armanca me ji rûpela nû ew e ku em bi hev re rewşa Herêma Kurdistanê diyar bikin


Səh. 18

В США выступают против проведения Турцией операций на северо-западе Сирии

www.arsivakurdi.org



# Prezident İlham Əliyevin Albaniyanın Baş naziri Edi Rama ilə təkbətək görüşü olub

Dekabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasının Baş naziri Edi Rama ilə təkbətək görüşü olub.

Əvvəlcə rəsmi foto çəkdirildi.

Qonağı salamlayan Azərbaycan Prezidenti İlham Əliyev dedi:

- Xoş gəlmisiniz. Sizi bir daha görməyimə çox şadam. Əvvəla, Albaniyaya səfərim zamanı mənə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə təşəkkür edirəm. Razılığa gəldiyimiz kimi, biz fəal dialoqu davam etdirəcəyik. Sizin səfəriniz artıq razılaşdırılmış məsələlərin gedişatını izləmək xarakteri daşıyır. Hər iki tərəfdən bütün tapşırıqlar verilib. Heyətlərimiz fəal şəkildə işləyirlər. Mənim rəsmi səfərimin nəticələri olduqca müsbətdir. Bizim əlaqələrimiz güclənir və yeni imkanlar yaranır. Sizə məlumat verdiyim kimi, biz Tiranada səfirlik açırıq və bu da əməkdaşlığımızın vacib bir əlamətidir. Praktiki nöqteyi-nəzərdən bu, bizə ölkənizdə gedən proseslərlə daha yaxından tanış olmaq imkanı verəcək. Eyni zamanda, bu, bizə ikitərəfli gündəliyimizdə daha da səmərəli olmağa imkan yaradacaq. Bir daha xoş gəlmisiniz.

**Albaniyanın Baş naziri Edi Rama dedi:**

-Təşəkkür edirəm cənab Prezident. Bu, mənim üçün şərəfdir. Mən də təşəkkürümü ifadə etmək istəyirəm. İcazə verin deyim ki, məsələlərin gedişatı ilə bağlı təəssüratım heyrətamizdir. İndi ölkəmizdə Azərbaycan səfirliyinin açılması çox vacib bir məsələdir. Qalan digər məsələlərə gəldikdə isə Siz dediyiniz kimi, biz işi davam etdirməliyik. Təşəkkür edirəm. Sonra Azərbaycan Prezidenti İlham Əliyevin Albaniyanın Baş naziri Edi Rama ilə işçi şəhər yeməyi əsnasında geniş tərkibdə görüşü olub.



Daha sonra dövlətimizin başçısı Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın çəkdiyi rəsm əsərini və Leyla Əliyevanın əsərlərinin kataloqunu qonağa hədiyyə etdi.

Sonda xatirə şəkli çəkdirildi.

# Prezident İlham Əliyev Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbərini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 6-da Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri Sergey Məlikovu qəbul edib.

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Rusiya Federasiyasının ayrı-ayrı regionları, o cümlədən Dağıstan Respublikası ilə uğurlu əməkdaşlıq həyata keçirdiyini bildirdi və bunun Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin inkişafına töhfə verdiyini dedi. Dövlətimizin başçısı, eyni zamanda, bildirdi ki, Azərbaycan-Rusiya əlaqələri 2022-ci ildə də uğurla inkişaf edib. Prezident İlham Əliyev bu baxımdan qarşılıqlı səfərlərin və səmərəli görüşlərin əhəmiyyətini vurğuladı, eyni zamanda, bu yaxınlarda keçirilən növbəti Azərbaycan-Rusiya regionlararası Forumunun önəmini qeyd etdi.

Dövlətimizin başçısı əsrlər boyu xalqlarımız arasında tarixi əlaqələrin mövcud olduğunu vurğulayaraq müasir dövrdə də bu münasibətlərin möhkəmləndiyini məmnunluqla diqqətə çatdırdı. Bu baxımdan Prezident İlham Əliyev Sergey Məlikovun ölkəmizə səfərinin Azərbaycanla Dağıstan arasında konkret istiqamətlər üzrə əməkdaşlığın genişləndirilməsi işinə töhfə verəcəyinə əminliyini bildirdi.

Xalqlarımızın qardaşlıq əlaqələrinin mövcud olduğunu bildirən Sergey Məlikov digər xalqların nümayəndələri ilə yanaşı, azərbaycanlıların da Dağıstanda vahid ailə kimi yaşadıqlarını məmnunluqla qeyd etdi. O, ölkəmizə səfəri zamanı keçiriləcək görüşlərin əməkdaşlığın daha da genişlənməsi işinə töhfə verəcəyinə əminliyini bildirdi.

Dövlətimizin başçısı Azərbaycan Prezidentinin Sərəncamına əsasən, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası, o cümlədən Azərbaycan və Dağıstan xalqları arasında dostluq əlaqələrinin inkişafında səmərəli fəaliyyətinə görə Dağıstan Respublikasının rəhbərinin müşaviri Maqomed Səidoviç Qurbanova təltif olunduğu "Şöhrət" ordenini təqdim etdi.

Sonra xatirə şəkilləri çəkdirildi.

Daha sonra Azərbaycan Prezidentinə görkəmli dövlət xadimi və ictimai xadim Əziz Əliyevin vaxtilə iş otağında olan heykəltəraşlıq əsəri təqdim edildi.

Qeyd edək ki, Əziz Əliyev 1942-1948-ci illərdə Dağıstana rəhbərliyi dövründə digər Qafqaz xalqları kimi, Dağıstan xalqına qarşı da nəzərdə tutulmuş sürgünün qarşısını almışdı. Buna görə Dağıstan ağsaqqalları adından ona tərkində uşaq olan atlının əks olunduğu heykəltəraşlıq əsəri hədiyyə edilib. Bu əsər bundan sonra Prezident İlham Əliyevin iş otağında olacaq.

# Prezident İlham Əliyev Türkiyənin milli müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinə Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, Quru Qoşunları komandanı, Hərbi Dəniz Qüvvələri komandanı və Hərbi Hava Qüvvələri komandanı daxildir. Hulusi Akar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Görüşdə 2022-ci ilin də Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafı baxımından çox uğurlu il olduğu bildirildi, əlaqələrimizin bütün sahələrdə, o cümlədən hərbi sahədə daha da gücləndiyi vurğulandı. Bu baxımdan, hazırda ölkəmizdə keçirilən Azərbaycan-Türkiyə birgə hərbi təlimlərinin çox böyük önəm daşıdığı qeyd edildi. Azərbaycanla Türkiyənin bundan sonra da daim bir-birinin yanında olacağı bildirildi.



Azərbaycana səfərinin Ümummilli Lider Heydər Əliyevin anım günü ərəfəsində olduğunu deyən Hulusi Akar Ulu Öndərin xatirəsinin Türkiyədə daim dərin ehtiramla anıldığını bir daha vurğuladı.

Söhbət zamanı Azərbaycan və Türkiyə prezidentləri arasında keçirilən mütəmadi görüşlərin münasibətlərimizin inkişafında rolu xüsusi olaraq qeyd edildi və iki dövlət başçısının müəyyənləşdirdiyi qərarlar əsasında digər sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığın uğurla davam etdiyi məmnunluqla vurğulandı.

Hulusi Akarın ölkəmizə səfərinin əlaqələrin genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.

Görüşdə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.

509:1.QXD 09.12.2022 3:41 Page 3

www.arsivakurdi.org



# Daşkəsənin icra başçısı Əhəd Abıyev Şahvələdli kəndində vətəndaşların qəbulunu keçirib



Dekabrın 7-də Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyevin ucaq dağ ətəyində yerləşən Şahvələdli kəndində qarlı olan açıq hava şəraitində keçirdiyi səyyar qəbulda rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və xidmət təşkilatlarının rəhbərləri, ərazi icra nümayəndəsi və kənd sakinləri iştirak ediblər.

İcra başçısı Əhəd Abıyev giriş nitqində sakinlərə Prezident cənab İlham Əliyev tərəfindən cari ildə qəbul edilən əhalinin sosial müdafiəsinə və rifahının yüksəldilməsinə yönəldilmiş qərarlar, həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verib. İcra başçısı çıxışında vurğulayıb: “Prezident cənab İlham Əliyevin dövrün reallıqlarına, tələblərinə və qanunauyğunluqlarına müvafiq surətdə uğurla və qətiyyətlə apardığı müstəqil dövlətçilik siyasəti milli ideologiyamıza əsaslanan maraqlarımızın təminatının, o cümlədən regionda təhlükəsizliyin əsas qarantıdır”.

Əhəd Abıyev həmçinin ötən dövrlərdə rayon ərazisində aparılmış quruculuq, abadlıq işlərindən və qarşıda duran vəzifələrdən söz açıb.

Daha sonra fərdi qaydada sakinlərin müraciətləri dinlənilib, qaldırılan məsələlərin araşdırılması üçün aidiyyəti üzrə tapşırıqlar verilib. Müraciətlərin əksəriyyəti yerində həll edilib. İcra strukturunun fəaliyyət dairəsinə aid olmayan müraciətlər isə qeydiyyata alınaraq müvafiq qurumlara göndərilməsi üçün nəzarətə götürülüb.

Şahvələdli kənd sakinləri çıxışlarında elektrik enerjisi, su, məktəb və digər sosial təminatlarla bağlı kəndin heç bir probleminin olmadığını qeyd edərək hər zaman onlara göstərilən diqqət və qayğıya görə Prezident cənab İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

# Gəncədə "Böyük qayıdış: dini, mənəvi və multikultural aspektlər" mövzusunda konfrans keçirilib

Azərbaycan Respublikasının Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Dövlət Təhlükəsizliyi Xidməti və Gəncə Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı ilə dekabrın 2-də "Böyük qayıdış: dini, mənəvi və multikultural aspektlər" mövzusunda konfrans keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Gəncə şəhərindəki abidəsi ziyarət edilib, əziz xatirəsinə dərin ehtiram bildirilib.

Tədbirdə ziyalılar, dini icma üzvləri, din xadimləri, şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Sahib Nağıyev qeyd edib ki, "Böyük Qayıdış" – öz mahiyyəti etibarilə Azərbaycan üçün həm regional, həm də beynəlxalq hadisədir. Bu proqram Qarabağa yenidən dönüş, 30 il işğal altında qalmış və Ermənistan tərəfindən vəhşicəsinə dağıdılaraq xarabalıqlara çevrilmiş ərazilərdə yeni həyatın bərqərar edilməsi, adları özünə qaytarılmış çoxsaylı kəndlər və şəhərlər, yollar, körpülər, müasir tikililər, məhv edilmiş qədim mədəniyyətin oyanışı, müxtəlif təyinatlı tarixi abidələrin bərpası, yenidən qurulması deməkdir. "Böyük Qayıdış" proqramının dini-mənəvi tərəflərini xüsusilə vurğulayan sədr müavini bildirib ki, Ermənistanın uzun müddət işğal altında saxladığı Qarabağ bölgəsində sosial strukturlarla yanaşı müsəlman



və xristian dini abidələrini dağıtması, saxtalaşdırması, o cümlədən tarixi-mədəni irsi yerlə yeksan etməsi faktları bütün dünyaya bəllidir. Vurğulayıb ki, 60-dan çox məscid, 200-ə yaxın ziyarətgah dağıdılıb və yarımuçuq məscidlərdə heyvan saxlanılmaqla dini dəyərlərimiz təhqir olunub, 900-dən çox qəbiristanlıq tamamilə dağıdılaraq qəbirüstü abidələr talan edilib. Erməni işğalçıları tərəfindən Qafqazın mədəniyyət beşiyi hesab olunan Qarabağdakı mədəni, tarixi və dini abidələrin dağıdılmasını İŞİD-in Suriyanın qədim şəhəri Palmira və İraqın Nimrud şəhərində törətdiyi dağıntılar ilə müqayisə edilə bilər. Hal-hazırda Qarabağda həyata keçirilən yenidənqurma işlərinə də toxunan Komitə rəsmisi cənab Prezident İlham Əliyev tərəfindən bu məsələnin daim diqqət mərkəzində saxlanıldığını, dövlət strukturları ilə yanaşı uzun illərdir Azərbaycanın tarixi-mədəni abidələrinin qorunmasında mühüm rolu olan Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun bərpa-quruculuq işlərində yaxından iştirak etdiyini diqqətə çatdırıb.

Baş Prokurorluğun idarə rəisinin müavini, ədliyyə müşaviri Asim Yusifov, Daxili İşlər Nazirliyinin şöbə rəisi Oqtay Tağıyev çıxışlarında cənab Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın əhəmiyyətinə toxunublar. Qafqaz Müsəlmanları İdarəsinin bölgə üzrə səlahiyyətli nümayəndəsi, qazı Tahir Abbasov din xadimlərinə yaradılan şərait, məscidlərin təmir və tikintisinə görə məmnunluğunu ifadə edib.

Konfrans işini müzakirələrlə yekunlaşdırıb.

# Sumqayıt Dövlət Dram Teatrında “O olmasın, bu olsun”

Sumqayıt Dövlət Dram Teatrında növbəti premyera gerçəkləşib.



Yaradıcı heyət bu dəfə dahi Üzeyir Hacıbəyova müraciət edib. Respublikanın Əməkdar artisti Namis Şirməmmədov məşhur “O olmasın, bu olsun” iki hissəli operettasına quruluş verib.

Premyeraya Milli Məclisin deputatı Müşfiq Məmmədli, YAP İdarə heyətinin üzvü, partiyanın Sumqayıt şəhər təşkilatının sədri, professor Ramiz Hüseynov, şəhər Ağsaqqallar Şurasının sədri, Əməkdar mühəndis Təbrik Quliyev, Sumqayıtın ədəbi cameəsi, yaradıcılıq təşkilatlarının rəhbərləri və ziyalılar tamaşa edib.

Qeyd edək ki, tamaşada obrazları Əməkdar artist İlahə Səfərova, aktyorlar Habil Xanlarov, Şəhla Məmmədova, Elay Xasıyev, İlham Səfərli, Yalçın Səlimov, Dağlar Rüstəmov, Rövşən Əsgərov, Ceyhun Məhərrəmov, Elmir Mehdiyev, Cavanşir Eyyubzadə, Ramazan Xanlarov, İlqar İbrahimov, Füzuli Qərənlizadə, Etibar Əmirov, Orxan Firudinov və başqaları canlandırıblar. ***sumqayitxeber.com***

# Tərtərdə “44 günlük zəfər - tarixi yazanların gözü ilə” adlı layihə çərçivəsində tədbir keçirilib

YAP Tərtər Rayon Təşkilatının qərargahında “Gənc Nəslin Maarifləndirilməsi” İctimai Birliyi tərəfindən Azərbaycan Respublikasının Qeyri-Hökümət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə “44 günlük zəfər - tarixi yazanların gözü ilə” adlı layihə çərçivəsində gənclərlə görüş keçirilib.

Tədbirdə Tərtər Rayon İcra Hakimiyyəti Başçısı Aparatında ictimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Rəqsanə Məmmədli, şəhid ailəsinin üzvləri, İctimai Birliyin sədri Mikayıl Həsənli, layihənin eksperti, yeniyetmə və gənclər iştirak ediblər.

Tədbirdə Vətən uğrunda canından keçmiş şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edildikdən sonra giriş sözü Tərtər RİHB-nin əməkdaşı Rəqsanə Məmmədli açaraq, iştirakçıları salamlayıb. O, bildirmişdir ki, bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır və bundan sonra da müzəffər xalq, qalib dövlət kimi əbədi yaşayacaq. 44 günlük Vətən



müharibəsində Zəfər Günü Xeyirin Şər üzərində qələbəsi və tarixi ədalətin təntənəsidir. Xalqın "dəmir yumruq"da birləşərək düşmənə zərbə vurması tarixin əbədi yaddaşına yazılmışdır. Ali Baş Komandanın "Qarabağ Azərbaycandır!" şüarı altında birləşən xalqın qəhrəmanlığı dünyaya bizim birliyimizi, iradəmizi və əzmkarlığımızı nümayiş etdirmişdir. Vətən uğrunda şəhid olanlar əsla unudulmayacaq, çünki onlar özlərindən sonrakı nəsil üçün silinməz, unudulmaz dastan yazdılar.

Daha sonra layihənin eksperti çıxış edərək, görüşün əsas məqsədinin İkinci Qarabağ müharibəsində qazanılmış zəfər tarixinin eləcə də ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda şücaət göstərmiş oğullarımızın döyüş yolunun gənc nəslə tanıdılmasından ibarət olduğunu bildirib. Tədbir müzakirələr şəklində davam etdirilmişdir.

509:1.QXD 09.12.2022 3:41 Page 4
www.arsivakurdi.org



# ŞƏRƏF XAN BİDLİSİNİN "ŞƏRƏFNAMƏ" ƏSƏRİ KÜRD XALQININ TARİXİ MƏNBƏYİ KİMİ

*(Əvvəli ötən sayımızda)*

*III F Ə S İ L*

**«ŞƏRƏFNAMƏ» ƏSASINDA XV-XVI ƏSRLƏRDƏ BİDLİS ƏMİRLİYİ**

Bu fəsildə kürd əmirlikləri və XV-XVI əsrlərdə Bidlis əmirliyi haqqında qısa məlumat verilir. Bundan başqa, əmirliyin coğrafi mövqeyi və əhalisi, siyasi tarixi, idarə orqanı, mülkiyyət və vergi formaları, sənət və ticarəti, maarif və mədəniyyətindən də bəhs olur.

**KÜRD ƏMİRLİKLƏRİ HAQQINDA QISA MƏLUMAT**

Aparılan tədqiqat nəticəsində kürdlərdən şahlıq edən və tarixçilər tərəfindən şahlar sırasına daxil edilən qüvvətli hökmdarlara da təsadüf olunur. Şübhə yoxdur ki, onlar böyük bir hökmdarlıq hüququnu ifadə edən, vahid və mərkəzləşmiş Kürdüstan hökuməti deyil, padşahlıq halında müstəqil və yarımmüstəqil surətdə bir zaman hökmdarlıq edən hakimlərdən ibarət olmuşdur.

Həmin dövrlərdə (X-XII əsrlərdə) bu şahlıqlar təkcə Kürdüstan ərazisində deyil, Luristan, Misir və Suriya ərazisində də təşkil edilmişdi.

Bu şahlıqlar haqqında Qazi Əhməd Qəzvini daha ətraflı surətdə məlumat vermişdir (101, 167-174). Bidlisi öz əsərinin beş fəsildən ibarət olan birinci şöbəsini həmin şahlıqlara həsr etmişdir (76, 19-82). O, bu mövzunu izah edərkən ən çox «Rövzət üs-səfa» və «Cahan ara» əsərlərinə istinad etdiyi üçün hadisələrdə tam oxşarlıq vardır.

Bidlisi əsərinin ikinci şöbəsini, bəzi hallarda öz adlarına xütbə oxutduran və sikkə zərb etdirən qüdrətli kürd hökumdarlarına həsr etmişdir (76, 82-149).

Bidlisi əsərin üçüncü şöbəsini üç hissəyə bölmüşdür. Birinci hissə 9 fəsildən ibarət olub Kürdüstanın digər əmir və hökmdarları haqqında dəyərli məluat verir (76, 149-269). O, həmin şöbənin ikinci hissəsini iki fəsilə bölmüşdür. Müəllif bu fəsillərdə kürd əmirliklərinin tarixini ətraflı surətdə izah etmişdir (76, 270-321).

«Şərəfnamə» əsərinin birinci cild, üçüncü şöbəsində müəllif İran kürdlərinin tarixini qeyd edir (76, 322-334).

Beləliklə, Bidlisi öz əsərində kürd şahları, hökmdar və əmirlərinin mənşəyi haqqında da faydalı məlumat verir. O, bunların əksəriyyətini mənşə etibarilə ərəblərə bağlayır. Müəllifin bu müddəası dövrün xarakterinə tamamilə uyğundur. Çünki ərəb istilasından əvvəl özlərini İran şahlarına, sonra isə fateh ərəb sərkərdələrinə mənsub edən kürd zadəganları tarixdə az olmamışdır. Bu mənsubiyyətlə lovğalanan bəzi kürd zadəganları XVI əsrin ortalarından etibarən Ali Osman sülaləsinə tərəf meyl etdilər. Bununla da kürd zadəganları sırasında paşa, əfəndi və s. kimi ləğəblər meydana çıxdı.

Söz yoxdur ki, bu hal kürd xalqına mənsub olan bir kürd ailəsinin öz milliyyətini inkar etməsindən başqa bir şey deyildir. Bu vəziyyət azlıqda qalan kürdləri çoxluğu təşkil edən başqa bir xalq içərisində əridib həll etmək siyasəti aparan qonşu dövlətlər üçün əlverişli olmuşdur. Çünki həmin təmayüldən istifadə edən müasir burjua tədqiqatçıları, hələ eramızdan əvvəl tarixdə məlum olan kürd xalqını öz mənşəyinə görə biri fars, digəri ərəb və başqası isə dağ türkləri adlandırmağa başladılar. Buna görədir ki, kürdlərin mənşəyini tədqiq edən müasir tədqiqatçılar hələ də düzgün bir istiqamət ala bilməmişdilər. Hətta Bidlisi özü də həm dövrün, həm də İran, ərəb tarixçilərinin təsiri altında olduğu üçün öz xalqının mənşəyi haqqında qəti fikir söyləyə bilməmişdir (76, 12-13).

Beləliklə, «Şərəfnamə»yə istinadən haqqında qıssaca məlumat verdiyimiz kürd əmirliklərinin tarixi ayrıca bir elmi-tədqiqat işi tələb edir. Məhz bu cəhətdən də biz bununla kifayətlənərək «Şərəfnamə» müəllifi Şərəf xan Bidlisinin sələfləri olan Bidlis hökmdarlarının tarixini «Şərəfnamə» əsasında tədqiq və təhlil etməyi məqsədə uyğun hesab edirik. Çünki Bidlisi özü də, həmin hökmdarlığın təbii şəraiti, əhalisi, siyasi, tarixi, mülkiyyət və vergi formaları haqqında az-çox məlumat vermişdir. O, digər kürd əmirliklərindən fərqli olaraq, Bidlisi əmirliyindəki sənət, ticarət, maarif və mədəniyyət sahələrinə aid faydalı məlumat vermiş və öz əsərinin dördüncü şöbəsini həmin əmirliyə həsr etmişdir.

**XV-XVI ƏSRLƏRDƏ BİDLİS ƏMİRLİYİ**

**Coğrafi mövqeyi və əhalisi.** Bidlis şəhəri Van gölünün cənub-qərbində olan ən qədim şəhərlərdən biridər. Bidlisinin yazdığına görə əvvəl İskəndər Zülqərneyn tərəfindən Bidlis çayının kənarında Bidlis qalası bina edilmiş, sonralar isə həmin qalanın ətrafında Bidlis şəhəri yaranmışdır (76, 335; 48, 315).

Firuzabadi göstərirdi ki: «Bidlis, Əxlat yaxınlığındakı gözəl bir şəhərin adıdır» (111, 215). Şəmsəddin Sami yazır: «Kürdüstanda olan Bidlis şəhəri orta əsrlərdə uzun zaman kiçik Kürd hökumətinin mərkəzi olmuşdur. Ətrafı bağlıq olduğu üçün şəhər çox böyük görünür, Bidlisin gözəl havası və sərin suyu vardır» (81, 1239).

Hacı Zeynalabdin Şirvani qeyd edir ki: «Əxlat nahiyəsinin qərbində yerləşən Bidlis şəhəri, iki dağ arasında salındığı üçün binalar bir-birindən alçaq və hündür görünür. Ürəkaçan bu şəhərdə beş minə qədər ev yonma daşdan tikilmişdir. Bu evlər adamın diqqətini özünə cəlb edir» (58, 132).

Beləliklə, Bidlisin havası, təbiəti haqqında bir sıra müəlliflər az da olsa faydalı məlumat vermişlər. Bidlisi göstərir ki: «Bidlis Azərbaycanla Diyarbəkir və Ermənistan arasında elə bir keçiddir ki, Asiyanın bir çox hacıları, Avropanın səyyah və tacirləri və dünyanın bir çox gəzənləri oradan keçməlidirlər» (76, 339).

Bidlis şəhəri şimalda Murad, cənubda Dəclə, qərbdə Fərat çayları və şərqdən isə Van gölü ilə sərhədlənir. Şəhərin ortasından axan Rəbbat çayı ona xüsusi gözəllik verir. 19 məhəllədən ibarət olan bu şəhərdə Bidlis hökmdarları tərəfindən bir çox ictimai binalar tikilmişdir.

Orta əsrlərdə böyük ticarət mərkəzi olan Bidlis əmirliyi bir neçə kürd əmirliklərini də öz ətrafında birləşdirmişdir. Bidlisi yazır ki: «Vaxtı ilə yarımmüstəqil olan Əxlat da sonralar Bidlis ilə birləşmişdi» (76, 351). Lakin 1246-cı ildə Əxlat dəhşətli zəlzələ, sonra monqolların hücumu və XVI əsrdə isə Osmanlı-İran müharibələri nəticəsində dağılmışdır. «Şərəfnamə» də göstərir ki; «İndi köhnə Əxlatın hər yerində qazıntı işi apardıqda, o zamanki əhalinin həyat tərzini əks etdirən abidələr və binalar aşkar olur» (76, 353).

Beləliklə, Əxlat da Bidlis əmirliyinə tabe olan qədim şəhərlərdən biri olmuşdur.

Bidlis əmirliyinin başqa bir nahiyəsi Muş rayonudur. Muş ən qədim şəhərlərdən biridir. Bidlisi göstərir ki: «Mənim babalarım burada hökmdarlıq edərkən... dağ üstündə yeni bir qala tikdirmişdilər» (76, 353). Muş böyük düzənliklərə və zəngin meşəliklərə malikdir. Fərat çayı Muş düzənliyinin şimalından, Qarasu çayı isə onun ortasından keçərək şəhərə təbii gözəllik verir.

Bidlisin başqa rayonlarından biri də Xnos rayonudur. Xnos yaxşı yaylaqlara malikdir. Katib Çələbinin əsərində Xnos rayonu Bidlis əmirliyinə tabe olan nahiyələrdən biri kimi qeyd edilmişdir (103, 415).

Xnosda uzunluğu yeddi kilometr olan bir göl vardır, ona Bulanıq göl deyilir (76, 355). Bundan başqa, iki qaynar bulaq da şəhərin təbii gözəlliyini artırır. Vaxtı ilə Xnos öz məhsuldarlığı nöqteyi-nəzərdən böyük əhəmiyyət kəsb etmişdir.

Bidlisi əmirliyinin tarixindən bəhs edən bir sıra müəlliflər, o cümlədən Bidlisinin müasiri olan Qazi Əhməd Qəzvini və Qunabadi İmadiyyə əmirliyinin də Bidlis vilayətinə tabe olduğunu qeyd edirlər (101, 286; 113, 294). Bu əmirlik Kürdüstanda olan ən qədim şəhərlərdən biridir. Həmdullah Mustovfi yazır ki: «Bu böyük şəhəri İmadəddövlə Deyləmi yenidən bina etmiş və onu İmadiyyə adlandırmışdır» (63, 45). Bidlisi öz əsərində İmadiyyə əmirliyinə ayrıca bir fəsil açmış və öz dövrünə qədər (XVI əsrin axırınadək) həmin əmirliyin tarixini yazmışdır. Şübhəsiz ki, kürd tarixinin yeganə mənbəyi olan «Şərəfnamə» dəki məlumatı əsasən düzgün hesab etmək olar. Beləliklə, XV-XVI əsrlərdə Bidlis əmirliyinə tabe olan bir sıra kənd və qəsəbələr istisna edilərsə, Əxlat, Muş və Xnos kimi əhəmiyyətli əmirliklərin də Bidlis əmirliyinə tabe olduqlarını qeyd etmək olar.

«Şərəfnamə» dəki məlumata görə həmin əsrlərdə Əxlat, Bidlis, Muş, Onik, Əxtəmar, Kifəndur, Kəlhuk, Firuz Sələm, Qolxar, Tatik və Suyi[40] kimi, mühüm qalalar da Bidlis əmirliyinin ixtiyarında olmuşdur (76, 424). O dövr üçün böyük bir əhəmiyyətə malik olan bu qalaların Bidlis hökmdarlarının sərəncamında olması həmin əmirliyin tarixində çox mühüm əhəmiyyət kəsb edir.

**Əhalisi.** Bidlis əmirliyində əhalinin tərkibi nisbətən müxtəlif idi. Burada kürdlərlə yanaşı asori və erməni ailələrini görmək olardı. Lakin əhalinin əksəriyyətini kürd tayfalarından ibarət olan müxtəlif qəbilələr təşkil edir. «Şərəfnamə» də bu əmirlikdə yaşayan əhalidən 4 min nəfərinin erməni və asori olduğu qeyd edilmişdir (76, 341).

Bidlisinin yazdığına görə Bidlis əmirliyində 24 müxtəlif kürd tayfa qoruğu yaşayırdı (76, 361). Əgər biz hər bir tayfa qoruğunu orta hesabla 2 min nəfər hesab etsək, o zaman təkcə Bidlis vilayətində 48 min nəfər əhalinin yaşadığını qeyd edə bilərik. Lakin sonralar Bidlis əmirliyi haqqında məlumat verən Şəms Sami bu vilayətin (Bidlisin) 172 kəndi,




30 min nəfər əhalisi və bu əhalinin də üçdə bir hissəsinin erməni və asori olduğunu göstərmişdir (81, 123).

Beləliklə, Bidlis əhalisinin sayı haqqında «Şərəfnamə» dəki məlumatla, «Qamus» dakı məlumat arasında fərq görürük. Bizə görə hər iki müəllifin verdiyi məlumat düzgündür. Lakin bu fərqi əmələ gətirən ictimai və siyasi hadisələr olmuşdur. Yəni digər kürd əmirliklərində olduğu kimi, Bidlis əmirliklərində də Osmanlı hökmranlığı başlandıqdan sonra əhalinin miqdarı getdikcə azalmışdır. Bunun əsas səbəbini isə Osmanlı-İran müharibələrində axtarmaq lazımdır.

Bidlis vilayətində yaşayan kürd tayfaları içərisində Ruzakilər ən qüvvətli əşirət hesab olunurdu. Buna görə də həmin tayfa bu əmirliyin tarixində çox mühüm rol oynamışdır.

Bidlisi yazır ki, Kürdüstanı işğal etmək fikrində olan qüvvətli şahlar əvvəlcə Bidlis hökmdarları və Ruzaki əşirəti ilə müharibə etməli olurdular. Çünki Ruzakiləri tabe etmədən başqa kürd tayfalarını itaət altına almaq mümkün deyildir (76, 360).

1479-1481-ci illərdə Ağqoyunlu hökmranlığına, 1535-1538-ci illərdə isə Osmanlı ağalığına qarşı apardıqları mübarizəni həmin tayfanın igidlik nümunələrindən biri kimi qeyd etmək olar.

«Şərəfnamə» də deyilir ki, Bidlis qalasının daşları qədər Ruzaki əşirətinin başları kəsilmişdir (76, 360). Beləliklə, həm çoxluğu, həm də igidliklərinə görə Bidlis hökmdarlığı əsrlər boyu Ruzaki zadəganlarının ixtiyarında olmuşdur.

**Siyasi tarixi.** Bidlisinin yazdığına görə bu tayfa ağsaqqalları Kəsra[41] nəslindən olan İzzəddin və Ziyaəddin adlı iki qardaşı Əxlatdan Bidlisə dəvət etmişdilər (76, 360). İzzəddin Bidlis, Ziyaəddin isə Hezo (Sason da deyilir) hökmdarı oldu. Lakin sonralar Ziyaəddin hiylə yolu ilə Bidlis hökmranlığını ələ keçirib qardaşı İzzəddini Hezo hökmdarı göndərdi. Bidlis hökmdarlarının mənşəyinin əsas etibarı ilə kəsranilərə çatdığını «Şərəfnamə» də görmək olar (76, 362). Ziyaəddin ölümündən sonra onun xələfləri ardıcıl olaraq Bidlisdə hökmdarlıq etmişdər. «Şərəfnamə» nin müəllifi qeyd edir ki, yalnız 110 ildən sonra Bidlis həmin sülalənin ixtiyarından çıxaraq, yadellilərin əlinə keçmişdir» (76, 362). Çünki Səlcuqlar dövründə Kürdüstanın digər əmirlikləri kimi, Bidlis əmirliyi də o sülaləyə tabe olmuşdur.

Bidlisi yazır ki: «Tarixdə adları qeyd olunan və mənim nəzərimə çatan Bidlis hökmdarı 18 nəfərdən ibarət olub 450 ildən artıqdır ki. hökmdarlıq edirlər (76, 364).

Dövlətşah Səmərqəndi göstərir ki: «Sultan Cəlaləddin Xarəzmşah monqol ordusu qarşısında məğlub olub Azərbaycana gəldi və burada da tab gətirə bilməyib Bidlisə getdi və orada Məlik Əşrəfin qızı ilə evləndi» (66, 162). Bidlisi də öz əsərində həmin hadisəni Dövlətşah Səmərqəndinin qeyd etdiyi kimi göstərərək yazır: «1225-ci ildən Sultan Cəlaləddin Bidlisə gəldiyi zaman məlik Əşrəf Bidlis hökmdarı idi» (76, 369; 97, 334).

*(Ardı gələn sayımızda)*

509:1.QXD 09.12.2022 3:41 Page 5



# XX əsrdə erməni rəsmi dairələrinin kürdlərə qarşı həyata keçirdiyi deportasiya, repressiya və terror aktları haqqında

Qərbi Azərbaycanda kürdlərə qarşı törədilən deportasiya, repressiya və terror aktlarından bəhs etməzdən öncə həmin regionda kürdlərin məskunlaşma arealı və demoqrafik vəziyyətləri barədə məlumat verməyə ehtiyac vardır.

Qərbi Azərbaycan ərazisində yaşayan əhalinin milli tərkibi haqqında ilk müfəssəl məlumatı İrəvan xanlığının rus qoşunları tərəfindən işğalından sonra rus tarixçi-statisti İvan Şopen tərəfindən 1829-1832-ci illərdə aparılan kameral siyahıyaalmanın nəticələrindən əldə etmək olar. İ.Şopenin verdiyi məlumata görə, işğaldan sonra keçmiş İrəvan xanlığının ərazisində 6435 nəfər şiə, 3.978 nəfər sünni, 324 nəfər yezdi kürd yaşamışdır.

İrəvan xanlığının işğalından sonra Alagöz (Ələyəz) dağının ətəyindəki bir sıra boşalmış türk kəndlərində də Türkiyədən gələn yezdi kürdlər məskunlaşmışdılar. Yezdi kürdlər 1839-cu ildə Mirək, Quruboğaz, Carcarçı, Çobangərəkməz kəndlərində, sonralar isə Pəmbək, Qundaxsaz, Böyük Camışlı, Kiçik Camışlı və Korbulaq kəndlərində yerləşmişdilər. Nəhayət, yezdi kürdləri 1877-1878-ci illər rus-türk müharibəsindən sonra Türkiyə ərazisindən gələrək Bağdad Dolu-Taxt və Kiçik Cəngi kəndlərində yerləşmişdilər. Sonralar Ermənistanın rəsmi dairələri tərəfindən adları dəyişdirilən, lakin əsasən yezdi kürdlərinin yaşadıqları kəndləri əhatə edən Araqats (Ələyəz) rayonu təşkil edilmişdi.

1886-cı ildə keçirilən ailəhesabı siyahıyaalmanın nəticələrinə görə, İrəvan quberniyasında 670.405 nəfər yaşamışdır ki, onlardan 251.327 nəfərini azərbaycanlılar, 36.478 nəfərini kürdlər təşkil etmişdir. Azərbaycanlılar ümumi əhalinin 37,5 faizini, kürdlər isə 5,44 faizini təşkil etmişdir.

1890-cı illərdə Türkiyədə baş qaldıran erməni üsyanlarının yatırılmasından sonra təqribən 400 min erməni Rusiyaya köç etmiş, onların da xeyli hissəsi İrəvan quberniyasının ərazisində məskunlaşmış və nəticədə quberniya ərazisində ermənilərin xüsusi çəkisi süni surətdə yüksəlmişdi. 1897-ci il Ümumrusiya siyahıyaalmanın nəticələrinə görə, İrəvan quberniyasında yaşayan 829.556 nəfər əhalinin 313.176 nəfərini azərbaycanlılar, 49.389 nəfərini kürdlər təşkil edirdi. Kürdlərin də 35.675 nəfərini müsəlman kürdlər, 13.714 nəfərini isə yezdi və erməni-qriqorian dinini qəbul etmiş kürdlər təşkil edirdi. Ümumiyyətlə, XIX əsrin sonlarında müsəlman və yezdi kürdlər indiki Ermənistan ərazisinin 34 kəndində yaşayırdılar.

Türkiyədən gələn yüz minlərlə ermənilər daimi məskunlaşdırmaq üçün 1905-1906-cı illərdə erməni silahlı dəstələri kütləvi qırğınlar törətmişdilər. Təkcə həmin illərdə İrəvan quberniyası ərazisində 150-yə yaxın türk-müsəlman yaşayış məntəqəsi viran edilmiş, əhalisi qırğınlara məruz qoyulmuş və evlərindən didərgin salınmış, həmin kəndlərin əksəriyyətində Türkiyədən gələn ermənilər məskunlaşdırılmışdı.

1915-1916-cı illərdə Türkiyə ərazisin-dən 300 minə yaxın erməni gələrək Cənubi Qafqazda məskunlaşmışdı. Həmin ermənilərin böyük bir qismi İrəvan quberniyasının ərazisində cəmləşmişdi. 1917-ci il “Qafqaz təqvimi”nə görə, 1916-cı ildə İrəvan quberniyasında yaşayan 1.120.242 nəfər əhalinin 373.582 nəfərini azərbaycanlılar, 59.132 nəfərini kürdlər, onlardan 36.508 nəfərini müsəlman kürdlər, 12.624 nəfərini isə yezdi kürdlər təşkil etmişdir .

1919-cu ilin iyun-avqust aylarında Ermənistan daşnak hökuməti Daxili İşlər Nazirliyinin qərarı ilə siyahıyaalma keçirilmişdir. Respublika ərazisində qeydə alınan 917.297 nəfər əhalidən 122.185 nəfərini müsəlmanlar, 48.672 nəfərini isə qeyri-müsəlmanlar təşkil etmişdi [5, s. 178]. Erməni müəllifi Zaven Qorqodyan yazır ki, daşnakların



“təmizləmə” siyasəti nəticəsində 1919-cu ildə 200 min nəfərdən artıq türk və kürd Ermənistandan qovulmuşdur.

1922-ci ildə Sovet Ermənistanında keçirilən siyahıyaalmanın nəticələri daşnakların hakimiyyəti dövründə həmin ərazidə türk-müsəlman əhaliyə qarşı törədilən soyqırımın miqyasını əyani şəkildə nümayiş etdirir. Belə ki, Ermənistanda yaşayan 781.011 nəfər əhalinin 76.555 nəfərini Azərbaycan türkləri (9,8 faiz), 705 nəfərini (0,1 faiz) kürdlər təşkil etmişdir.

1926-cı ildə keçirilən ikinci Ümumittifaq siyahıyaalmanın nəticələrinə görə, Sovet Ermənistanında 880.464 nəfər əhali yaşamışdır ki, onlardan 85.554 nəfəri azərbaycanlılar, 3.025 nəfəri müsəlman kürdlər, 12.237 nəfəri isə yezdi kürdlər olmuşdur [13, s. 4-8]. Faiz etibarilə azərbaycanlılar ümumi əhalinin 9,76 faizini, müsəlman kürdlər 0,4 faizini, yezdi kürdlər isə 1,4 faizini təşkil etmişdir.

1931-ci il siyahıyaalmanın nəticələrinə görə, Ermənistanda yaşayan 1.050.633 nəfər əhalinin 106.768 nəfəri azərbaycanlılardan (10,1 faiz), 19.268 nəfəri (1,9 faiz) kürdlərdən ibarət olmuşdur.

1930-cu illərdə Ermənistanda həyata keçirilən repressiyaların dalğasının fonunda azərbaycanlılar və müsəlman kürdlər daha ağır zərbə almışdılar. Xalq düşmənlərini, trotskiçi-buxarinçi casusları ifşa etmək məqsədilə A.Mikoyan, N.Yejov və L.Beriya Ermənistana gəlmişdilər. Moskvaya belə məlumat verilmişdi ki, Ermənistanda Araz və Yuxarı Arpaçay çayları boylarında yaşayan müsəlmanlar casusluq edir və guya elliklə Türkiyəyə keçmək fikrindədirlər. Ona görə də 1937-ci ilin payızında və 1938-ci ilin yazında Ağbaba, Vedibasar, Zəngibasar, Qəmərli, Eçmiedzin, Hoktemberyan, Meğri rayonlarının Türkiyə və İranla həmsərhəd kəndlərində yaşayan azərbaycanlı və müsəlman kürd ailələri kütləvi surətdə repressiyaya məruz qalmışdılar. Minlərlə ailə Orta Asiyaya və Qazaxıstana sürgün edilmişdir. Ümumiyyətlə, XX əsrin 30-cu illərində Ermənistandan 50 mindən artıq azərbaycanlı və müsəlman kürd repressiyaya məruz qalmışdır.

1939-cu ildə keçirilən üçüncü ümumittifaq siyahıyaalmanın nəticələrinə görə, Ermənistanda yaşayan 1.282.330 nəfər əhalinin 130.997 nəfərini azərbaycanlılar (10,2 faiz), 20.481 nəfərini kürdlər (1,6 faiz) təşkil etmişdir.

1947-ci il dekabrın 27-də SSRİ Nazirlər Sovetinin “Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında” qəbul etdiyi qərara əsasən, 100 min kolxozçu və digər azərbaycanlı əhalinin üç il ərzində Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi qərarlaşdırılmışdı. Lakin 1948-1953-cü illərdə azərbaycanlı əhali ilə bərabər, müsəlman kürdlər də Ermənistandan deportasiya edilmişdilər. Ona görə də 1939-cu ildən1959-cu ilədək keçən 20 il müddətində Ermənistanda yaşayan azərbaycanlı əhalinin və müsəlman kürdlərin sayı kəskin şəkildə azalmışdı. 1959-cu ildə keçirilən dördüncü ümumittifaq siyahıyaalmanın nəticələrinə görə, Ermənistanda yaşayan 1.763.048 nəfər əhalinin 107.748 nəfərini azərbaycanlılar (6,1 faiz), 25.627 nəfərini kürdlər (1,5 faiz) təşkil etmişdir.

1970-ci ildə keçirilən beşinci ümumittifaq siyahıyaalmanın nəticələrinə görə, Ermənistanda yaşayan 2.491.873 nəfər əhalinin 148.189 nəfəri azərbaycanlılardan (5,9 faiz), 37.486 nəfəri kürdlərdən (1,5 faiz) ibarət olmuşdur.

1979-cu ildə keçirilən altıncı ümumittifaq siyahıyaalmanın nəticələrinə görə, Ermənistanda yaşayan 3.037.259 nəfər əhalinin 160.841 nəfərini azərbaycanlılar (5,3 faiz), 50.822 nəfərini kürdlər (1,7 faiz) təşkil etmişdir.

Sovet hakimiyyəti illərində Ermənistanda müsəlman kürdlər əsasən Vedi (Ararat), Zəngibasar (Masis), Basarkeçər (Vardenis) rayonlarında və İrəvan şəhərində yaşayırdılar. Ermənistanda ayrıca müsəlman kürd kəndi yox idi. Azərbaycanlı kəndlərində yaşayan kürdlər əhalinin 10-15 faizindən çoxunu təşkil etmirdilər. Yezdi kürdlər isə əsasən Ələyəz (Araqats), Talin, Abaran, Hoktemberyan (Armavir), Artaşat, Dilican rayonlarında və İrəvan şəhərində yaşayırdılar.

1988-ci ildə keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli mövqeyindən istifadə edən Ermənistan Respublikası Dağlıq Qarabağ Muxtar Vilayətini anneksiya etməyə cəhd göstərməklə yanaşı, Ermənistan SSR Ali Soveti sessiyasının məxfi göstərişinə əsasən, 1988-ci il noyabrın 22-dən 28-dək olan müddət ərzində azərbaycanlılar yaşayan 22 rayonda 170 sırf və ermənilərlə qarışıq 94 yaşayış məskənləri boşaldılmış, nəticədə 200 mindən çox azərbaycanlı, 18 min müsəlman kürd, min nəfər rusdilli əhali Azərbaycana qovulmuşdur.

Ermənistanın Ələyəz rayonunda doğulub böyüyən, İrəvan Dövlət Universitetinin filologiya fakültəsini bitirən, sonralar İrəvan radiosunun kürdcə verilişlər redaksiyasında və Ələyəz rayon komsomol komitəsinin katibi işləyən İşxan Aslanoviç Ankosi Ermənistanın müstəqilliyə qovuşmasından sonra təzyiqlərə tab gətirməyərək Ermənistanı tərk etmək məcburiyyətində qalmış və 1993-cü ildən Krasnodarda yaşayır, “Midiya” Kürd Milli-Mədəni Muxtariyyətinin sədri, Kürdüstan Milli Konqresinin üzvü kimi yezdi kürdlərin hüquqlarının müdafiəsi istiqamətində fəaliyyətini davam etdirir. Onun atası Aslan Xudoyan uzun müddət yezdi kürdlərin yaşadığı rayonlarda rəhbər vəzifələrdə işləmiş, ermənilərin kürdlərə qarşı diskriminasiyasının canlı şahidi olmuşdu.

İşxan Ankosi yazır ki, hələ ötən əsrdə 50-ci illərin sonu, 60-cı illərin əvvəllərində Ermənistanda millətçilik əhval-ruhiyyəsi ən yüksək həddə çatmışdı. Millətçilik daha çox Yakov Zarobyanın Ermənistan KP MK-nın birinci katibi olduğu dövrdə özünü büruzə vermişdir. Məhz Y.Zarobyanın açıq şəkildə dəstəyi sayəsində Ermənistanda antikürd siyasəti yeridilmişdir. İşxan Ankosi yazır: “Biz kürdlər praktik olaraq hər gün, hər saat hakimiyyət dairələri tərəfindən xalqımıza qarşı yeridilən diskriminasiya siyasətini hiss edirdik”. O, daha sonra qeyd edir ki, hələ XX əsrin 80-ci illərində Ermənistan rəhbərliyi kürdlərlə azərbaycanlılar arasında qarşıdurma yaratmaq siyasəti yeritmişdir. Belə ki, kürdlərin kəndlərindən olan təmsilçiləri Ermənistan KP MK-ya dəvət edilərək onlara “respublika ərazisində yaşayan bütün kürdlərin kompakt ərazidə yaşamaları və heyvandarlıqla məşğul olmaları üçün” onların Amasiya rayonuna köçmələri təklif edilmişdi. Həmin vaxt Amasiya rayonunda yaşayan əhalinin 85 faizindən çoxunu azərbaycanlılar təşkil edirdi. İşxan Ankosi yazır ki, bununla Ermənistan rəhbərliyi kürdlərin əli ilə azərbaycanlıların Amasiya rayonundan sıxışdırılıb çıxarılmasına nail olmaq və gələcəkdə müsəlman kürdlər ilə azərbaycanlılar arasında yaratdıqları düşmənçilikdən istifadə etmək məqsədi güdürdü. Məhz müsəlman kürdlərin Amasiya rayonuna köçməkdən imtina etmələrindən sonra onları cəzalandırmaq üçün 1983-cü ildə Ermənistan hökuməti Ararat vadisində qoyunçuluğun qadağan edilməsi barədə qərar qəbul etmişdi.

**(Ardı var)**

***Nazim MUSTAFA***
***Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru***

www.arsivakurdi.org

# Zəngəzurun Hacısamlı camaatı

XVIII yüzilin ikinci yarısında Qaraçorlu mahalında bir neçə tayfa icması və kənd camaatı cəmlənmişdi. Ən böyük icmalardan biri Hacısamlı camaatı idi.

Camaat öz adını Hacı Sam Şadılıdan alıb. Bəzi qaynaqlara görə, Hacı Sam Xorasanda ömür-gün sürüb. Hacı Samın Hüsən adlı oğlu vardı. Hüsən Xorasanda, Məşhəd dövrəbərində dünyaya gəlmişdi. Heyvandarlıqla məşğul idi. Müqəddəs Məkkəyi-Mükərrəmi ziyarət etmişdi. Hacı Hüsənin Şirin bəy adlı oğlu vardı. Şirin bəy Məşhəd civarında dünyaya göz açmışdı. Yekəlib, yetman igid olandan sonra, tayfa-toluğunu (10 ailədən ibarət Babadünlü tayfasını) başına yığıb, Qarabağa üz tutmuşdu. Ilk dəfə Ərdəşəvə və Vağazin torpaqlarında binələmişdi. Zorkeşişdə məskunlaşan qeyri-müsəlmanlar Şirin bəyin tayfasına korluq vermiş, mal-heyvanını otlağa buraxmamışdı.






Sonda Şirin bəy camaatı başına toplayıb, zorkeşişliləri qovub-çıxarmışdı. Köməyə gələn Gəvənli tayfasına xeyli torpaq ayırmışdı. Nadir şah Qırxlı-avşarın ölümündən sonra Şirin bəyin qohumu Qasım da uruğ-turuğunu toplayıb, Qaraçorlu mahalına gəlmişdi. Şirin bəy ona Kürdhacı torpağını tuş vermişdi. Qasımuşağından sonra Qaraçənli tayfası bu yurdda məskunlaşmışdı. Qaraçənlilərin ilk düşərgəsi Bazardüzü idi.

Hacısamlı camaatı Qarabağ xanlığının siyasi yaşamında mühüm rol oynamışdı. Rus-Iran savaşlarında fəal iştirak etmişdi. Gah ruslara, gah da iranlılara kömək etmişdi. Hacısamlıların Qacar ordusuna köməyi haqqında tarixçi Mirzə Yusif Qarabaği “Tarixi-Safi” adlı əsərində yazır: “Bir tərəfdən qızılbaşlar, digər tərəfdən Hacısamlının kürdləri və qeyri türklər, eləcə də günəşin istisi, yolların çətinliyi, əyri-üyrülüyü ruslara mane olduğu üçün qalaya gələ bilmədilər və batalyonu suya çatdıra bilməyib, dağıldılar. Bəziləri qətl olundu və bir hissəsi də əsir düşdü…” (Bax: Qarabağnamələr, 2-ci kitab, Bakı, “Yazıçı”, 1991, səh.)

Ibrahimxəlil xan hakimiyyətinin son dönəmində Qaraçorlu tayfasını, Hacısamlı camaatını oğlu polkovnik Xanlar ağaya tapşırmışdı. Qaraçorlu elini savaşlara Xanlar ağa aparırdı.

Tarixçi Mir Mehdi Xəzani “Kitabi-tarixi-Qarabağ” adlı əsərində Xanlar ağanın Qaraçorlu elinə başçılıq etməyindən dəfələrlə bəhs etmişdir. Tarixçi yazır: “Xanlar ağa öz müqərribi və ixtiyarı olan Əhməd ağa ilə Qaraçorlu və Hacısamlı kürdlərinin mahalına daxil olub…” Başqa bir yerdə yazır: “…Xanlar ağa dəxi öz ixtiyarında olan Hacısamlı və Sultanlı xalqının atlı və piyadəsinin cəm edib…” (Bax: Qarabağnamələr, 2-ci kitab, Bakı, “Yazıçı”, 1991, səh.).

1823-cü ildə Hacısamlı camaatı: Vergiödəyənlər: 132 tüstü, ödəməyənlər: Sultan Əliməhəmməd bəy 1 tüstü, onun qohumları məaf 4 tüstü, rəiyyətləri qeyri-müsəlman 6 tüstü, kasıb 12 tüstü, molla 2 tüstü, çavuş və onbaşı 1 tüstü.

Hacısamlı camaatının bir hissəsi Mehdiqulu xan Cavanşirə bağlı idi. Bu oba XIX yüzilin önündə, 1827-ci ildə 60 tüstüdən ibarət idi. Obada Rövşənin (Molla Şərif, Abbas, Tanrıverdi, Şahbaz), Hüseynin (Haqverdi, Allahverdi, Xıdır, Hüseynşah, Həsən), Bağırın (Xəlil, Cəlil, Mehdi), Əli bəyin (Imamqulu bəy, Vəli bəy, Bayram bəy). Xəlilin (Məmmədəmin, Tanrıverdi), Tərlanın (Iman, Məmməd), Hacıxanın (Həsən, Fətəli), Cəfərin (Bayram, Süleyman), Xudaverdinin (Tanrıverdi, Məmməd), Qələndər (Allahverdi, Imamverdi, Şahverdi) uşaqları dövran keçirirdilər.

1827-ci ildə Hacısamlı camaatının bir bölüyünün başçısı Həsən Qələndər oğlu idi. Onun yanında əslən Dilağardalı Məmmədqasım Xələf oğlu (1787-?), arvadı Nisə, oğlu Allahverdi və qızı Güllü ilə olurdu.

Hacısamlı camaatı bir neçə tayfadan ibarət idi. Bu tayfalar: qasımuşağı, qarabayramlı, əhmədüşağı, qaraçənli… Hacısamlı camaatı Gəvənli, Babadünlü, Babadün, Qaraçənli-Alaqaya, Qaraçənli-Kümbəzli, Qasımuşağı (Kürdhacı), Əhmədüşağı (Rəsullu), Namlı (Lələbağırlı), Qarabayramlı, Ərdəşova, Pircahan, Piçənis, Vağazin və Şəlvə adlı kəndlərdən ibarət idi. Qasımuşağı tayfası Kürdhacı, Şamkənd, Birinci Çorman, Ikinci Çorman, Ələkçi, Bozdoğan, Piçənis, Bülövlük şenliklərini salmışdılar. Qarabayramlı tayfası Şəlvə, Qabaqtəpə-Daşlı, Kalafalıq-Daşlı, Canıbəyli, Narışlar, Vəlibəyli, Budaqdərə, Imanlar, Hacıxanlar, Qovuşuq, Dambulaq-Seyidlər, Kaha, Pircahan, Alpout, Qoşasu, Alıqulular kəndlərini yaratmışdılar. Əhmədüşağı tayfası Hətəmlər, Muncuqlu-Rəsullu, Korcabulaq, Taxtazavod yaşayış məntəqələrini bina etmişlər. Qaraçənli tayfası



Qorçu, Qarabəyli, Zağaaltı, Lələbağırlı, Ərikli, Güləbird və başqa yaşayış məntəqələrinin əsasını, ilk daşını qoydular. Babadünlü tayfası Bülüldüz, Ipək şenliklərinin bünyadını qoydular.

XIX yüzildə Qarabağda oğruluq qoçaqlıq, qəhrəmanlıq sayılırdı. Qarətlə sonuclanan xanlıq savaşları bitmiş, silahlar yerə qoyulmuşdu. Dəliqanlılar özlərini yeni atıb-tutmaq, vurub-çapmaq meydanı olan qaraoğurluqda sınayırdılar. Bu dönəmdə Hacısamlı cavanları da qaraoğurluğa qurşanmışdılar. Ünlü şair Qasım bəy Zakir yazırdı:

***Səfikürdi, Hacı Samlı, Kolanı,***
***Tutarlar, soyarlar dalda qalanı,***
***Viran olsun görüm Doyranbasanı,***
***Evdə yatan yoxdu, qarışıb papaq.***

Hacısamlı camaatının bir hissəsinin yiyəsi isə Xanlar ağa Ibrahimxəlil xan oğlu Sarıcalı-Cavanşir idi. Xanlar ağa 1831-ci ildə varissiz vəfat etdiyindən camaat qardaşı Əhməd xana qaldı. Əhməd xanın oğul övladları hələ sağlığında tələf olduğundan qızı Bikə ağaya dövr edildi. Bikə ağa general-leytenant Həsən bəy Ağalarovla ailə qurmuşdu. Davud ağa adlı oğlu, Mariya xanım adlı qızı vardı. Davud ağa Həsən bəy oğlu 1864-cü ildə Tiflis şəhərində doğulmuşdu. Əhməd xan həm dini, həm də hökumət qaydası ilə onu varisliyə götürmüşdü. Şuşada yaşayırdı. Əhməd xanın ona ayırdığı mülkü idarə edirdi. Sonra Sankt-Peterburq şəhərinə köçdü. Milis praporşiki rütbəsi vardı. Davud ağa 14 yanvar 1890-cı ildə vəfat edib. Davud ağa Natalya Iosifovna Boyko adlı xristian qızla evlənmişdi. Övladı olmadı. Mariya xanım Tiflis şəhərində dünyaya gəlmişdi. Böyüyəndən sonra xristianlığı qəbul edib (Mariya Aleksandrovna) polkovnik Fon-Kruzenşternlə həyat qurmuşdu. Hacılı camaatının torpaqlarının vergisini Natalya Boyko və Fon-Kruzenştern toplayırdı. Hacısamlı mahalı XIX yüzildə Alxaslı, Vağazin, Kalafalıq, Bozgüney, Ağcayazı, Ardıclı, Nurəddin, Fərraş, Korcabulaq, 1-ci Tığıq, 2-ci Tığıq, Qorçu, Zağaaltı, Oğuldərə, Qoşasu, Alpout, Bülövlük, Daşlı, Vəlibəyli, Narışlar, Hətəmlər, Kaha, Kürdhacı, Ərikli, Hacısamlı, Piçənis, Xaçınyalı, Güləbird, Pircahan, Əliqulu, Qaraçanlı, Təzəkənd, Ərdəşəvə, Haqnəzər, Qozlu, Fingə, Bülüldüz, I Ipək, Ayıbazarı, Hoçaz, Şamkənd, Köhnə Çorman, Bozdoğan, Ələkçi, Nağdalı, Şəlvə, Qovuşuq, Zorkeşiş (Hacıxanlar), Budaqdərə, Imanlar kəndlərini yaratdılar.

1905-1906-cı illərdə Hacısamlı camaatı ermənilərə qarşı qəhrəmanlıq göstərmişdi. Mir Möhsün Nəvvab yazır: “Başqa bir yerdə, yeni Hacısamlı və Piçanlı kürdləri toplaşaraq Gorusun Xənəzək kəndinə hücum etdilər. Ermənilərin qabaqcadan gördükləri tədarüklərinin çox olmasına baxmayaraq, müsəlman kürdlərin bu qəfil hücumundan karıxaraq bilmədilər nə etsinlər. Müsəlman kürdlər onların çaşqınlığından istifadə edərək bir tərəfdən kəndin evlərinə od vurmağa başladılar. Beləliklə, onlar 20 evi yandırdılar. Evlərin alovu və müsəlman kürdlərin nərələri göylərə yüksəlirdi. Ermənilər bu hücumun qarşısında davam gətirə bilməyib qaçmağa başladılar. Beləliklə, Xənəzək kəndində 20 nəfər erməni öldürüldü. Müsəlmanlar əldə etdikləri qənimətləri özləri ilə kəndə gətirdilər”. Hacısamlı camaatı tarixən qoçaq, qəhrəman bir toplum olub.

**Mənbə:**

**Ənvər Çingizoğlu, Hacısamlı camaatı, “Soy” dərgisi, Bakı, 2009.**

**Ənvər Çingizoğlu. Qaraçorlu mahalı. “Soy” dərgisi, 1 (27), Bakı, 2009. səh.97-106.**

www.arsivakurdi.org

509:1.QXD 09.12.2022 3:41 Page 7

www.arsivakurdi.org



# Azərbaycanlıların deportasiyası və 1988-ci il faciəsi

Ermənistanın müasir sərhədləri daxilində yaşayan azərbaycanlıların sayı 1926-cı ildəki 84,5 min nəfərdən artıb 1931-ci ildə 106,8 min, 1939-cu ildə isə 130,9 min nəfərə çatmışdı. Təbii artım 1939-cu ildə 1926-cı ilə nisbətən 154,9 faiz, 1931-ci ilə nisbətən isə 122,6 faiz təşkil etmiş, mütləq artım 12 il ərzində 56,4 min nəfəri keçmişdi. Hər min nəfərə düşən ali təhsillilərin və alimlərin sayına görə erməniləri üstələmişdilər. Həmin dövrdə ermənilərin təbii və mexaniki artımı müvafiq surətdə 118,6 faiz və 102,2 faiz olmuşdu. Azərbaycanlıların xüsusi çəkisi 1926-cı ildə 9,5 faiz olduğu halda, 1931-ci ildə 10,1 faizə, 1939-cu ildə isə 10,5 faizə çatmışdır.

Bundan narahat olan Ermənistan SSR-nin rəhbərliyi azərbaycanlılar çoxluq təşkil edən rayonlarda inzibati-ərazi bölgüsü aparmış, Dilican rayonu İcevan və Krasnoselsk rayonlarına, Kalinino rayonu Kalinino, Stepanavan, Noyamberyan rayonlarına bölünmüş, əhalisi bütünlüklə azərbaycanlılardan ibarət olan Qarabağlar rayonu Vedi rayonuna, Amasiya rayonu Qukasyan rayonuna birləşdirilmişdir. Zəngibasar rayonu Artaşat və Eçmiadzin rayonları arasında bölünmüşdür. Beləliklə, bu rayonlarda azərbaycanlıların xüsusi çəkisi azalmış, ziyalıların bu və ya digər vəzifə tutmaq imkanları heçə enmişdir.

Erməni millətçiləri SSSR-də keçirilən kolxozların birləşdirilməsi, perspektivsiz kəndlərin ləğvi kampaniyasından da azərbaycan kəndlərinə qarşı məharətlə istifadə edə bildilər. Kəndlərin bir qismi "perspektivsiz" kimi gələmə verilərək ləğv edildi, ermənilər yaşayan kəndlərlə birləşdirildi. Bunlar Azərbaycan məktəblərinin, mədəniyyət ocaqlarının bağlanmasına, milli kadrların işsiz qalmasına və başqa yerlərə köçməsinə səbəb olmuşdur.

Stalin-Mikoyan-Beriya üçlüyünün fitvasına əsasən 1947-1952-ci illərdə Ermənistandan 130 min nəfərə yaxın azərbaycanlı əhalinin guya "könüllü surətdə" heyvan daşınan üfunətli vaqonlarda köçürülməsi təşkil olundu.

1948-ci il Ermənistanda yaşayan azərbaycanlıların həyatında yeni faciələrin başlanğıcı kimi tarixdə həkk olunmalıdır. Stalin-Mikoyan-Beriya üçlüyü Ermənistanda yaşayan azərbaycanlılara qarşı yeni genosid proqramının əsasını qoydular. "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarı əsasında Ermənistanda yaşayan 100 min nəfər azərbaycanlı ahali köçürülməli idi. Bununla 1948-ci ildən soydaşlarımızın ata-baba yurdlarından guya "könüllü" deportasiyası başlandı. Qərarın 11-ci bəndində deyilirdi: "Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililərdə və yaşayış evlərində xaricdən gələn erməniləri yerləşdirmək üçün istifadə olunsun". Belə izah olunurdu ki, Ermənistanın kiçik ərazisində xaricdən gələn erməniləri yerləşdirmək çətindir, və azərbaycanlıların köçməsi ermənilərə göstərilən qardaşlıq münasibətinin təzahürüdür.

Qərbi Azərbaycan torpaqlarında ermənilərin yerləşdirilməsi üçün SSRI Nazirlər Soveti 1945-ci il noyabrın 21-də xüsusi qərar qəbul etmişdir. Bu qərarda xaricdən ermənilərin gətirilməsi və Ermənistanda yerləşdirilməsinin bütün detalları nəzərdə tutulmuş, azərbaycanlıların köçürülməsi xarici ermənilərin boşalan kəndlərdə yerləşdirilməsilə əsaslandırılırdı. Sonralar aşkarlandı ki, əslində bu kəndlərdə yerli ermənilər məskunlaşdırılmışdır. Deməli o zamandan əsas məqsəd azərbaycanlıları qovmaq, erməni kəndlisinin yerini genişləndirmək idi. Boşalmış 200-dən çox kənddə bir nəfər də olsun xaricdən gələn erməni yerləşdirilməmişdir. Ləğv olunan Qarabağlar rayonunun bütün kəndlərinin ərazisi Vedi rayonundakı ermənilər yaşayan kəndlərin mal-qarası üçün otlaq yerinə çevrilmişdir. Martuni rayonu dağ kəndlərinin erməni əhalisi Vedi və Artaşat rayonlarında, Ağın rayonu dağ kəndlərinin erməni əhalisi Zəngibasar rayonunun Mehmandar və digər kəndlərində yerləşdirilmiişdir. Yalnız İrandan köçüb gələn ermənilər üçün Eçmiadzin, Hoktemberyan, Artaşat rayonlarında bir neçə sovxoz təşkil olunmuşdur.

Kommunist partiyasının təbliğat-təşviqat maşını işə salınıb bu köçürməni belə əsaslandırmağa cəhd göstərirdi ki, Ermənistandan köçürülən azərbaycanlılar Azərbaycanın geniş və münbit torpaq sahələrində maddi durumlarını xeyli yaxşılaşdıra, mədəniyyət, təhsil sahəsində inkişaf edə biləcəklər. Sovet Azərbaycanında məkrli erməni kələyini heç kim dərk etməmiş, əksinə, Azərbaycandan onlarca rəsmi nümayəndələr, o cümlədən Nazirlər Soveti sədrinin müavini, ziyalılar Ermənistana gedib azərbaycanlılarla söhbətlər aparır, köçürməni Lenin-Stalin milli siyasətinin yeni bir təzahürü kimi qələmə verir, prosesi sürətləndirməyə çalışırdılar.

Buna baxmayaraq bir sıra rayonlarda el ağsaqqalları müqavimət göstərməyi bacarmışdır. Əhalisinin 90 faizindən çoxunu azərbaycanlılar təşkil edən Basarkeçər rayonunda "köçürmə" ciddi çətinliklərlə qarşılaşdı. Rayon əhalisi köçürməni təşkil etmək üçün rayona gələn emissarlara deyirdi: "Aramızda Şahdağı, o tərəfdə isə Kəlbəcər var. Niyə bu qədər əziyyət çəkib bizi oraya köçürürsünüz? Yaxşı olmazmı ki, biz yerimizdə qalaq, sərhəddi bu tərəfə – Göyçənin (Sevanın) ortasına çəkəsiniz?" Bu kimi gizli müqavimətin təşkilatçıları Talıb Musayev, Tapdıq Əmiraslanov, Yunis Rzayevvə başqaları idi. Beləliklə, Basarkeçər rayonunda azərbaycanlılar yaşayan 33 kəndin əhalisi yerindən tərpənmədi,1988-ci ilin deportasiya dövrünə qədər bütün təzyiqlərə sinə gərdi.




Köçürməni sürətləndirmək üçün Ermənistan SSR-nin rəhbərləri hətta rayonların məsul işçilərinə təzyiq göstərirdilər. Məsələn, Əzizbəyov rayonunun İcraiyyə Komitəsinin sədri Yusif Abbasov və raykomun ikinci katibi Əziz Cəfərov Yerevana dəvət edilmiş, oradan qayıtdıqdan dərhal sonra Y.Abbasov Bakıya, Ə.Cəfərov isə Mir-Bəşir rayonuna köçmüşdürlər. Nə qədər qəribə görünsə də onların vəzifədən azad edilməsi nə rayon partiya komitəsində, nə də rayon Sovetinin sessiyasında müzakirə olunmamışdır.

Rayon əhalisinin üçdə birindən çoxunun azərbaycanlı olmasına baxmayaraq bir gün ərzində rayon mərkəzində vəzifə tutan bir nəfər də azərbaycanlı kadr qalmadı. Bunları görən azərbaycanlı əhali köçkün yoluna üz tutdu.

Ermənistan hökuməti köçürmənin təşkili zamanı belə bir taktika seçmişdir. İlk növbədə əhalisi qarışıq olan, sonra münbit torpaqları və yaxşı iqlim şəraiti olan kəndlərin azərbaycanlı əhalisi köçürülürdü. Qarışıq kəndlərdə onların evinə dərhal həmin kəndin erməni əhalisi yerləşir, ev-əşiklərinə sahib olurdular. Əhalisi bütünlüklə köçürülən kəndlərdə isə dağlarda yaşamış ermənilər məskunlaşırdı.

Məsələn, Əzizbəyov rayonunun mərkəzindən 10 km cənub-şərqdə, Əzizbəyov-Sisyan yolunun sağında, meşəli təpələrlə əhatə olunmuş səfalı bir guşə – Cul kəndi vardı. Uzaqdan baxarkən kənd iri bir amfiteatra bənzəyirdi, içindən büllur kimi bərq vuran şəffaf bulaq axırdı. Kənddəki 1X-XVI əsrlərə aid qəbiristanlıq buranın qədim türk tayfalarına məxsus olduğunu sübut edirdi. 1831-ci ildə 25 evdə 117 nəfər, 1891-ci ildə 899, 1905-ci ildə 1222, 1931-ci ildə 960 nəfər azərbaycanlı əhalisi olmuşdur. 1931-ci ildə 1905-ci ilə nisbətən əhalinin azalması 1918-1920-ci illərdə ermənilər tərəfindən törədilən soyqırımın nəticəsi idi. 1918-ci ildə əhali kəndi tərk etmiş, 1920-ci ildən sonra geri qayıdmış, 1949-1950-ci illərdə Azərbaycana köçürülmüşdür. İnsanları elə tələm-tələsik çıxarmışdılar ki, hətta kolxoz sədri Rizvan Quliyev əmək haqqına düşən taxılı belə apara bilməmişdi.

Azərbaycanlılar köçürüləndən dərhal sonra dağlıq Ağxaç kəndinin erməni əhalisi burada yerləşdirilmişdir. Cul kəndi 63°, 16′, 45″ uzunluq, 39° 39′ 35″ en dairəsində, dəniz səviyyəsindən 1885 metr yüksəklikdə, Ağxaç kəndi isə 63°, 05′, 45″ uzunluq, 39° 35′, 57" en dairəsində, dəniz səviyyəsindən 1940 metr yüksəklikdə yerləşmişdir. Beləliklə, daha yüksəklikdə yerləşən kənd əhalisi aşağıya – mimbit torpaqları olan kəndə köçürülmüşdür. Ermənistan SSR Ali Sovetinin 1950-ci il 18 aprel tarixli fərmanı ilə Cul kəndi Artavan adlandırılmışdı. Əhalinin köçürülməsi ilə yanaşı tarix də saxtalaşdırılmışdır. Erməni mənbələrində Cul kəndini səciyyələndirən dəlillər Ağxaç kəndinin adına yazılmışdır. Bu kimi saxtalaşdırma belə bir rəy yaradmaq üçündür ki, guya 1950 ilə qədər Cül kəndində azərbaycanlılar yaşamayıb.

Yeri gəlmişkən qeyd edək ki, Ağxaç kəndində yaşayan ermənilərin əcdadları 1828-1829-cu illərdə İranın Xoy və Salmast şəhərlərindən gəlmiş, əvvəlcə Söylən kəndində, sonra isə əvvəllər azərbaycanlılar yaşamış Ağxaç kəndində yerləşdirilmişdilər. 1831-ci ildə Söylən kəndində 14 ailədə 58 nəfər, Ağxaç kəndində isə 6 ailədə 37 nəfər azərbaycanlı əhalisi olub. İrandan köçüb gələn ermənilərin Dərələyəz bölgəsində yerləşməsi ilə əlaqədar bu kəndlərin azərbaycanlı əhalisi başqa kəndlərə köçmüşdür.

Digər kəndlərin də başına eyni oyunlar açılmışdır. Sovet Ermənistanında əvvəlcə 1918-1920-ci illər azərbaycanlı əhalisi qovulmuş kəndlərin, sonra internasional adlananların 1948-1952-ci illərdə və nəhayət, əhalisi 1988-ci ildə qovulmuş bütün kəndlərin adı dəyişdirilib erməniləşdirilmişdir. Buna həm Azərbaycan xalqına, həm də tarixə qarşı təcavüzdən, genosiddən başqa özgə ad vermək olmaz.

Göründüyü kimi, Çar Rusiyası dövründəki hadisələrlə Sovet dövrünün hadisələri bir-biri ilə üst-üstə düşür. Yalnız bir fərqlə: Çar Rusiyası dövründə azərbaycanlılar ev-eşiklərindən qovulur, yerlərində ermənilər məskunlaşdırılır, kəndlərin adı olduğu kimi qalır, onların milli mənsubiyyəti saxlanılırdı, Sovet dövründə isə azərbaycanlılar qovulur, yurdlarında ermənilər məskunlaşdırılır, kəndlərin adı dəyişdirilib erməniləşdirilir, tarix saxtalaşdırılırdı.

Azərbaycanlıların Ermənistandan yola salınması da ağrılı məsələlərdəndir. Ermənistandan köçürülənlər ev əşyaları, mal-qaraları ilə birlikdə heyvan daşınan vaqonlara doldurulub İmişli, Sabirabad, Saatlı, Beyləqan, Ağdaş, Göyçay, Zərdab, Ucar, Xanlar rayonlarına doğru, Yerevan-Naxçıvan-Mincivan-Horadiz-Saatlı istiqamətində yola salınırdı. Qızmar yay günlərində köçkünlərin nə dərəcədə əzab-əziyyət çəkdiklərini təsəvvür etmək çətin deyildir.

Köçkün karvanlarından birinin keçdiyi yolu nəzərdən keçirək. Basarkeçər, Nor-Bayazet, Axta rayonlarından köçürülənləri Zəngibasar (Uluxanlı) dəmir yolu stansiyasına toplayırdılar. Onların bir yerə yığılması, vaqonların yüklənməsi azı 10 gündən çox çəkirdi. Bundan sonra 30-40 vaqondan ibarət köçkün karvanı yola salınırdı. Hərəkət elə planlaşdırılmışdır ki, köçkünləri daşıyan qatarlar iri dəmir yolu stansiyalarından gecələr keçirdi. Ona görə belə edirdilər ki, yerli əhali köçkün soydaşlarının acınacaglı halını görüb narazılıq etməsinlər.

Köçkünlərin İmişli, Saatlı, Ucar, Ağdaş, Xanlar rayonlarına gedib çatması ən azı 10-15 gün çəkirdi.

Əhali və mal-qara susuzluqdan, aclıqdan xeyli əziyyət çəkirdi. Mal-qara qızdırmadan tələf olurdu, qocalar və uşaqlar arasında ölüm halları baş verirdi. Köçkün vaqonlarında doğulan uşaqlara valideynləri Köçxanım, Köçəri adları verirdilər. Köçəri qədim zamanlardan, Köçxanım isə Sovet dövrünün töhfəsi idi. Amasiya, Noyemberyan, Qafan, Sisyan, Əzizbəyov, Mikoyan və başqa rayonlardan yola salınanlar da bu kimi acınacaqlı vəziyyətlə üzləşirdilər.

Ermənistandan yola salananlarla Azərbaycanda qarşılayanlar arasında lazımi əlagənin olmaması üzündən gələnlər Azərbaycan rayonlarında da xeyli əziyyət çəkirdilər. Əksər hallarda qatarlar vaxtında mənzil başına çatmırdı, bu səbəbdən köçkünlər vaxtında qarşılanmırdılar. Stansiyalar ətrafına tökülmüş insanlar yeni əziyyətlərlə üzləşirdilər.

1948-1952-ci illərdəki köçürmə zamanı köçkünlərin yüzilliklərlə yaşadığı və yeni məskunlaşdığı ərazinin iqlim fərqi nəzərə alınmırdı. Dəniz səviyyəsindən 2000 metr yüksəklikdə, dağlıq rayonlarında yaşayanların Azərbaycanın aran rayonlarında yerləşdirilməsinə haqq qazandırmaq olmaz. Yerli şəraitə uyğunlaşa bilməyən köçkünlər Azərbaycanın müxtəlif rayonlarına səpələnmək, hətta sonralar Ermənistana qayıymaq məcburiyyətində idilər. Həmçinin köçürülmə əsrlər boyu Ermənistanda yaşamış əhalinin özünəməxsus adət-ənənələrinin də itirilməsinə gətirdi.

0 zaman Göyçə mahalında yaşayan, 1918-ci ildə Andranikin əməlləri ilə üzləşmiş pirani qoca Şamo Vəliyevin "Mikoyanın qələmi Andranikin qılıncından betərdir" kəlamı geniş yayılmışdır. Şamo kişi deyirdi ki, "Andranikin qılıncından xilas olunanlar ev-eşiklərinə qayıtdılar. Mikoyanın qələmi isə elə hökm yazıb ki, bir daha buraların üzünü görə bilməyəcəyik. Görünür, daşnaklarla Sovetlər bir şeydir: onlar gılıncla, bunlar isə pambıq sapla baş kəsəndirlər."

Xarici köçkünlərin içərisinə soxulub gələn daşnak emissarları əvvəl gizlin, 1965-ci ildən sonra isə açıq-aşkar antitürk təbliğatı aparırdılar. Azərbaycanlıların respublikadan sıxışdırılıb çıxarılmasına yönəlmiş tədbirlər davam etdirilirdi. Belə ki, X.Abovyan adına Ermənistan Dövlət Pedaqoji İnstitutunun azərbaycanlı şöbəsi bağlanıb Bakıya köçürüldü. Bu şöbənin dil-ədəbiyyat, tarix-coğrafiya, fizika-riyaziyyat fakültələri, qiyabi təhsil bölmələrində 600 nəfərdən çox tələbə təhsil alırdı. Yerevan Pedaqoji Məktəbi Xanlar şəhərinə köçürüldü. Kənd Təsərrüfatı Texnikumu, sonra C.Cabbarlı adına Yerevan teatrı fəaliyyətlərini dayandırdılar. Bu teatrda xüsusi dəsti-xətti və xidməti olan Əli Zeynalov kimi görkəmli xadim yetişmiş, sonralar Azərbaycana köçmüşdür.

**(ardı var)**

***Həbib Rəhimoğlu***

***"Silinməz adlar, sağalmaz yaralar"kitabından***

509:1.QXD 09.12.2022 3:41 Page 8



# Füzulinin "Kürd dilində şeirləri gün üzünə çıxdı"

Füzulînin Kurd dilində şeirləri gün üzünə çıxarıldı. Itkin şeirlər, şair Səlim Temo tərəfindən latin əlifbasına çevrildi.

Cemal Süreya, ömrü yetsə, Füzulinin "Beng ü Bâde" sini günümüzün türkcəsinə çevirecekti. "Bu uzun şeir kürdlərin və türklərin qardaşlıq simvolu olacaq" demiş, Füzulinin "qardaşlığın" simvolu saymışdı.

Yaxşı amma səbəb başqa bir şair deyil də o? Bir çox kitab və məqalədə Füzulinin kürd olduğu və "işdə bunlar" deyilib göstərilməsə də Kürtçe şeirlər yazdığı bildirilir. Görəsən Cemal Süreya bunu bilir idimi? Köhnə ədəbiyyata vaqif bir şair olaraq bu şeirləri görmüş idimi?

Füzuli kimi böyük bir şairi sahiblənmək, bunun maddi təməli olmasa belə mənalıdır əlbəttə. Ancaq pespaye bir irqçiliklə dolu Türkolojide tarixi, kürdlər və Kürdçeye dair hər şeyi örtməklə marufken "şayiə" nı səbəb ciddiyə almayaq? Ehtiyat şərti ilə təbii. İki şeydən söz edəcəyəm, ehtiyata nümunə olsun:

1. İllərcə Nef'î'nin Kurdish şeirləri olduğu deyildi. Bunu söyləyənlər arasında bir zamanların prezidentliyə namizəd, indilərdə MHP millət vəkili olan Ekmələddin İhsanoğlu da var. (Http://www.dha.com.tr/kurtce-egitime-taraftarim_725057.html)

Sonra Cənubi Kürdistanlı çalışqan bir alim olan Tehsîn Îbrahîm doski bir nüsxə tapdı və nümayiş etdi. Bu mətn, bilinən Nef'î'ye deyil, türk, fars, Goranî və Soranî şeirlər yazan Nefaî'ye aid idi. Bilinməyən bir ad idi. Çox da yaxşı oldu. Bir roman üçün bir fikir: 1960-cı illərdə "nə kürd, nə də Kürtçe vardır" demək məcburiyyətində qalıb köhnə Türk ədəbiyyatında hakimə edən Siverekli bir gənc, zamanın əlyazmaları kitabxanasında nəf'i sandığı Nefaî'nin mətnini görür. Qorxudan sapsarı kəsilir. Texnoloji bir vasitə da yox ki kopyala! Həm kopyalasa dövlətdən necə saxlayacaq? Bizim gənc kitabxanadan yorğun dizlerle çıxar. Bir gün, siyasi bir Kürdə Nef'î'nin Kurdish şeirlərini gördüyünü söyləyir və şayiə yayılır! Bu, təbii, Nef'î'nin Kurdish şeirlərinin olmadığı mənasını verməz.

Dövlət tərəfindən gizlədilən əlyazmaları

2. Ankaradakı Milli kitabxanada bir Melanin Cizîrî divanı vardır amma qapağı Füzulinin "Leyli vü Mecnûn" udur! Başqa bir roman üçün başqa bir fikir: (Bəlkə də) Kürtçenin qadağan edildiyi dövrün Milli Təhsil nazirlərindən olan Bedirxanî mənşəli Hüseyn Vasif Çinar, bütün əlyazmaları dövlət tərəfindən toplanarkən, əlindəki divanı gizləmə gərəyi duydu, yox edilməsinə içi əl verməd i. Onu "Leyli vü Mecnûn" un qapağının içinə saxlayıb təslim etdi. Həm bu nüsxə elə belə bir nüsxə deyil. Teyar Paşa Amedî'nin bilinən tək nümunəsi olan öz xətti (Söz mövzusu kitabxananın amr nüsxəni tapıb yakmasınlar dərhal, bir kopiyasını çoxdan aldım!). Bəlkə biri o mətni gördü, Füzulinin Kurdish şeirlər yazdığını sandı!

AZERİCE, KÜRTÇE qohumluğu

1483'te doğan Füzulinin Azeri, bu səbəbdən Türk sayan bir çox mətn söz mövzusudur. Bir neçə şey atlandı amma. İranın bir dil olan köhnə Azerice ilə Kurdish arasında möhkəm bir əlaqə var, qohum dillər. Həm "əz" həm "min" vardır bu iki dildə. O "əz" çevrilib "öz" olur, dil bir assimilyasiya reallaşar. "Azər" (ateş) isə Kürtce içində "adir-ağır" (Zazakî-Kurmancî) halında yaşayır ya da əksinə. İki cəmiyyət qohumdur, amma Azerice assimilyasiya nəticəsində artıq "Türki" bir dildir. Bu səbəbdən Füzulinin Azeri də olsa Kürd də olsa Kurdish bilməsi və yazması çaşdırıcı deyil. Sahə ilə əlaqədar bütün qaynaqlarda onun Ərəb, Fars və Türkçe şeirlər yazdığı ifadə edilər. Yaxşı ya Kurdish?

Kürd ədəbiyyatının yazılı tarixiylə əlaqədar işlərdə ümumiyyətlə 9. əsr və sonrasından qalan Goranî mətnlərdən söz edilir. Bu mətnlər 19. əsrdə ya yazıya keçirilmiş ya da köhnə səhifələr "dəftər / tezkire" şəklində tarix Hərçənd daha köhnə tarixli "Kəşkül / tezkire" lər də var; Anwar Sultanının 1998-ci ildə Londonda nümayiş, A. M. Mardoukhi'nin (1739-1797) "Kəşkül Şi'r-i Goranî Kurdî / Anthology of Gorani Kurdish Poetry" si kimi.

Sözü edilən şeirlərin dərhal hamısı "xalq



şeiri" tərzindədir. Amma "klassik / divan" ədəbiyyatı baxımından baxıldığında bilinən ən köhnə mətn, Kamal Fuad'ın 1970-ci il tarixli "Kurdische Handschriften" kitabında ifadə etdiyinə görə 14. əsrdə Mele pərişan tərəfindən yazılmış sofist bir mesnevinin. Ancaq Kurmancî klassik şeiri üçün bildiyimiz ən köhnə ad, Elî Herîrî'dir.

### İTMİŞ DİVANI

Şərəf-Xan, 1597-ci il tarixli "Şerefname" sində Mîr Yaqub Zerqî'nin də bir Kürtçe divanının olduğunu söyləyir. Hələ də bulunabilmiş bir divan deyil bu. Amma Herir və Zerqî'nin 1500-cü illərdə yaşadığını qəbul etsək Füzuli ilə yaşıd olduqlarını görməmiz lazım olacaq. Hətta əgər aşağıda köçürdüyünüz qaynaqlar və Kürtçe beytlər doğru isə, bəlkə də Füzulinin klassik Kurmancî şeirinin -şimdilik- bilinən ən köhnə adı saymağımız lazım olacaq!

Əlbəttə Füzuli Kurdish yazıbsa belə bu onun kürd olduğu mənasını verməz. Burada Füzulinin Kürtlüğünü sübut çalışmıram onsuz da. Diqqətimi daha çox çəkən şey, Türkolojide qalıq adlarının Füzulinin kürd olmadığını səhifələrlə anlatmalarıdır. Bu məni kuşkulandırıyor işdə. Bunlar bir şey saxlayırlar!

Türkcənin içindən gəlib Kurdish şeirlər yazan bir yarım addan söz edə bilərlər ki buçuğu Gelibolulu Əlinin (1541-1600). 10 dildə yazdığı bir mülemmasında Kurdish (Kurmancî) bir sətir də vardır: "Kürd olan vəlvələ ilə bunı iradə eylər / Dekojim te tu Bizansın dirûvê min tu biyar." Bir və tək ad isə İbrahim Xəlil Soğukoğlu'dur (1901-1952). Divanında 6 dənə Kurdish şeir vardır amma özü şairdən çox kəşfiyyat agenti olaraq bilinər. Çox qarışıq olan bu məsələyə heç girməyin. Konsentrə imanlı köşə yazarlarından bəziləri Rojava'da məsələ murat etdikləri çərçivədən çıxınca daha əvvəl sınanmış və işə yaramış "Soğukoğlu modeli" ni təklif etdilər bir ara deməklə kifayətlənək!

Kürd şair ÜÇÜN Füzuli MÜSTESNASI

Klassik dövrdə Osmanlı / Türk və kürd şairləri bir-birlərini şairdən saymazlar çox; nazireydi, tahmisti yazmazlar. Amma Kürd şairləri üçün Füzuli müstəsnadır. Məsələn Pertew Begê Hekarî'nin (1777-1841) bir şeiri, birbaşa Füzulinin bir şeirinin tərcüməsidir. Abdurrahman Adak'ın bir yazısındakı diqqətlə ilk beyit baxaq: "Menyu tək heç kim zâr ü pərişan olmasun yâ Rəb / Əsir-i dərd-i ışk u dağ-ı hicrân olmasun yâ Rəb" (Füzuli). "Weki min qət kəsək jar û pərişan hər nebit ya Rəb / Əsir û dərd (i) darê daxê hicran hər nebit ya Rəb" (Pertew Beg). O halda kürd şairlərinin ona istiqamətli əlaqəsi yalnız şairliğine mi? Üstəlik Pertew Beg sünni, Füzuli isə şiə.

Bilməm bilirsinizmi, İranın Şimali Xorasan əyalətində 2 milyona yaxın kürd Şiə-şiə bir əhali var. Böyük əksəriyyəti Malatya, Sivas, Dersim, Ərzurum, Ahlat və s. mənşəlidir. Uzun məsələ bu da, yaxında çıxacaq "Xorasan Kürdləri: Tarix-Ədəbiyyat" kitabımızda geniş məlumatlar olacaq. Hələlik bu qədərini söyləyim: Bu cəmiyyətin Kelimullah Tewahodî Kanîmal adlı bir mədəni lideri var. Kürdlərin 16. və 17. əsrdə xatırlanan bölgələrdən Xorasana göçertilmesini 6 cildlik kitabında ev ev, tayfa tayfa izah edər. Onun Kanîmal kəndindəki bir cür diyarşünaslıq muzeyi olan evinin astanasında da üz sürmək üçün getdiyimizdə bir kitabını hədiyyə etmişdi ki bizi təkrar Füzuli bəhsində qaytaracaq məlumatları işdə oradan köçürəcəyəm.

Füzulinin YOX EDİLƏN ŞİİRLERİ

Yazarın "Hezar və Yek Şəb, Kurmancî, Xorasan, Fəlsəfə-i Şi'r və musiqi-i Kurmancî" adlı Fars kitabında söz mövzusu əyalətin paytaxtı Bocnûrd'a bağlı Əliabad kəndində, Elî rehmet Qurdanlû'nun tapdığı bir əlyazmasından söz edilir (Elî böyük qardaş, əyalətin əhali müdiri icra edən qiymətli bir mədəniyyət insanıdır eyni zamanda). Kanîmal, Füzulinin də Ehmedê Xanî və Horasanlı böyük şair Cəfər Quli Zengelî kimi dörd dildə şeirlər yazdığını bildirir. Ona görə Füzulinin Kurdish şeirləri yox edilmişdir. Eyni şəkildə bir çox ədəbiyyat tarixçisi onun Kürtlüğünü anmaz. Ancaq A. E. Krimsky, onun Azərbaycandakı bir kürd tayfasına mənsub olduğunu yazmaqdadır. Kanîmal, Baba Merdox'un da bənzər məlumatlar köçürdüyünü edir.

Yazara görə əlinə keçən nüsxə, dəfələrlə növ surəti (əllə yazaraq kopiyalama) edilməsindən qaynaqlı olaraq oxunmaz hala gəlmişdir. Söz mövzusu nüsxə Fransız qələmi və qara mürəkkəblə yazılmışdır. 489 beyitten ibarətdir. Bunların 320'si Türkçe, 162'si Kürtçede (Kurmancî). Yazar geri qalan 7 beytin hansı dildə yazıldığını ifadə etmir. Bütün başlıqların Fars olduğu nüsxənin ilk 160 beytinin 149'u Kürtçe, 11-i isə Türkcədir. Yazara görə bu vəziyyət, nüsxənin ilk halında daha çox Kurdish beyitten söz etməyi mümkün edər. Çünki Kürtçedeki fərqli səkkiz hərfi bilməyən müstensihler (nüsxəni yenidən yazanlar), çətin gəldiyi üçün Kürtçeyi görməməzlikdən gəlib Fars və Türkçe beytləri kopyalamışlardır. Hər nə qədər güclü bir iddia olmasa da belə deyir yazar.

Gələk Kurdish beyit. Bu Kurdish beyit baxıldığında Kurmanciye Behdînî ağzına yaxın olduqları görülür. Xorasan Kürtçesinde yaxşıca kompleksləşən ergativite və çatıdişi ayrı-seçkiliyi diqqəti çəkər. Bu vəziyyət, onun Xorasan Kurmancîsine tərcümə olmadığını göstərir böyük ölçüdə. Ancaq "gep" (danışma) və "se / sa" (üçün, kimi, səbəbiylə) sözləri onun Xorasan Kurmancîsine "tərcümə" ola biləcəyini düşündürür.

Digər bir diqqət isə, Kanîmal'ın nüsxəni matbu hərflərə köçürərkən soranım uyğunlaşdırılmış Ərəb əlifbası ilə yazması və bəzi ifadələri Xorasan ağzına yaxınlaşdırmasıdır. Məsələn "li" əlavəsi "lə" olur, "ji" isə "je" olur. Söz mövzusu mətn bir Türkçe-Kürtçe Leyla ilə Məcnun mesnevisidir. Aşağıda bir hissəsini Latın əlifbasına çevirirəm. Bəzi hissələrdə Kürtçe və Türkçe beytlər art arda gəlməkdədir.

Fars başlıqları isə eklemiyorum (Mətnin fars üçün yardımlarını əsirgəməyən Siyaveş Azəri və Adnan Oktay'a çox təşəkkür edirəm).

Bu beytlər, söz mövzusu kitabın 153 və 154. səhifələrindən alınmışdır. Ayrıca bura aldığımız beyit biri Türkiyədə basılan bir nüsxədə belə görünür: "Əlbəttə bir od ki düşdi câna / Axır dutuşup çəkər zəbanə." Geri qalan beytlər isə bu nizamda deyil, amma Türkiyə nüsxəsində da "nüsxə fərqləri" yla var; nömrələrini göstərdim. Kürtçesinde isə bəzi vəzin problemləri var, bunun həllini də daha yaxşı bilənlərə buraxdım.

Yəni bu şair qətiliklə Füzuli. Kurdish beytlər isə derkenarda deyil, mətnin içində. Bu, Kürtçe beytləri yazanın da Füzuli olduğuna dair güclü bir dəlil. Bütün bunlara qarşı müəyyən bir ehtiyat şərti ilə bu mətnlərin görülməsi və müzakirəsini arzuluyorum. Bəlkə bir gün biri yenidən "Beng ü Bâde" ni xatırlamaq istər, iqtidara boyun əğməmiş böyük Füzulinin əks-sədası hər iki dildə yenidən yankılanır, hər kəs öz azadlığını yaşar və Adnan Oktay deyimiylə "Füzulinin Kurdish şeir gözəliylə vüslət reallaşar."

Füzulinin Kürtçe-Türkçe Leyli û Məc-



nunun əlyazmasının səhifəsi.

Füzulinin KÜRTÇE - TÜRKÇE Leyli VI Mecnun'dan beyitlerini nümunələr

Əllah tu bike le min şefeqet  
Ez Bike göftar wî rewayet  
Leyli ku le me kiteb güzər kir  
Eşqin HEWES le wê ... şerer  
(oxuna bilmir)  
Ew herdu le hev kirin Nizar  
Yeki çû Qəmər, Yeki çû Zohre  
Eşqin dilê wan le wan əsər kir  
Duri fələkdən le wan xəbər kir  
Elbetde bir od düşəndə câna  
Yanup dutuşur çəkər zebâna (869)  
Dildən dilə düşdi bu fəsanə  
Mərakeş oldı bu macəra cəhanə (643)  
Bir saf qız oturdı biri oğlan  
Cem 'oldı behiştdə Hûr u GILMAN (560)  
Qız nərgiz-i məst ilə füsûnsâz  
Oğlanı satanların işvə vü Naz (562)  
Ol qızlar içində bir pərizad  
Qız ilə söhbət itdi Bünyad (564)  
Qeys oni görüb həlak buldı  
... (Oxuna bilmir) O gussa vü dərdnak oldı (581)

**FARSÇA Mövzu**

Ew Ceren gepe dikir wekî TIR  
Cem Leylinin xətt jinika pîr  
Got: ew çi (münasib?) Li din ə  
Siren derende çi Nir çi mî nə  
Rûnişt-i li cəm degotî qîzê  
Golçere nigar-i pir təmiz  
Me do hod Bist ji felanî  
Eşq li te buye nûcewanî  
Baqî te dəbinə, te dekojî  
Xûynî te mîna piling dimijî  
Wekî me negot li me weha kî  
Dosta li me, duşmenan tu şa kî  
Rehmet li te bi, te qar rind kir  
Fərhad û Şirin karê te nekir  
Baqî te dəbinə Çunki naga  
Serê te debirrî (ew) bê şekwa  
Tu ar (û?) Namus xe nizanî  
Tu be qıçı î û nə xizan î  
Bişi qədəmləri xe tu, mere der  
Wellah ku debi, cuda je te ser  
(Se çi rəhm Naki li) dê xe ye pîr  
Min xeyri te kəs tunîne desgîr

***Səlim Temo***

***gazeteduvar.com.tr***

***01 Dek 2016 (Son yeniləmə 02 Dek 2016 13:21)***

509:1.QXD 09.12.2022 3:41 Page 9



# Başkan'dan Dünya Demokrat Partiler Konferansına mesaj



Başkan Mesud Barzani, Washington'da düzenlenen Dünya Demokrat Partileri yıllık konferansına bir mesaj yolladı.

Dünya Demokrat Partileri Konferansına Başkan Mesud Barzani'yi temsilen Avrupa ve Dünya Siyasi Demokratik Gençliği Başkan Yardımcısı ve Kürdistan Demokratik Gençlik Birliği Temsilcisi Felah Hasan'ın katıldığı aktarıldı.

Hasan, Başkan Barzani'nin mesajını konferans katılımcılarına iletirken Dünya Demokrat Partiler Başkanı Stephen Harper'a konferansa daveti için teşekkürlerini sundu.

70 ülkeden 85 demokrat partinin üye olduğu Dünya Demokrat Partiler Konferansında, ülkeleri liderlerinin yanı sıra senatörler, siyasiler ve ABD Kongre üyelerinin hazır bulunması bekleniyor.

Başkan Barzani'yi temsil eden Hasan'ın konferansta görüşmeler yapması ön görülüyor. ***PeyamaKurd***

# Dizeyi: KDP ile YNK arasında arabuluculuğa gerek yok!



Kürdistan Bölgesi Dış İlişkiler Dairesi Başkanı Sefin Dizeyi Kürdistan Yurtseverler Birliği (YNK) ile Kürdistan Demokrat Parti (KDP) arasındaki sorunların arabulucuya ihtiyaç duyacak kadar büyük olmadığını belirtti. Dizeyi, "YNK ile KDP arasındaki sorunlar arabuluculuk gerektirecek kadar büyük değil ve YNK ile KDP sorunlarını diyalog yoluyla çözmeli" sözlerini dile getirdi.

KDP'nin ne olursa olsun birlikten yana olduğuna dikkat çeken Dış İlişkiler Dairesi Başkanı, Kürdistan Bölgesi'nin büyük bir mücadeleyle elde edilen kazanım ve birikimlerine sahip çıkmak için birlik olmaları gerektiğinin özellikle altını çizdi. ***PeyamaKurd***

# KSDP Lideri: PYD, Suriye rejiminin tüm taleplerini kabul etti



Kürdistan Demokratik Sosyalist Partisi (KSDP) Lideri Mihemed Hacî Mehmûd, ABD'nin bölgedeki siyasetinin PKK'den dolayı bozulduğunu, Suriye'nin onlar açısından sınır olduğunu bildirdi.

KSDP Lideri söz konusu duruma yönelik açıklamada bulundu. Açıklamada Mehmud, "Bölgedeki değişimler çok hassas bir süreçten geçiyor. ABD Ortadoğu'daki projelerini tamamlayamadı. Bölgede güçlü bir güç oluşturamıyor. Irak'ta halen güçlü bir hükümet kuramıyor. Suriye'yi de Türkiye'ye teslim etmiş durumda. Yemen'de başarılı olamadı. Afganistan'da başarılı olamadılar ve Taliban'a teslim ettiler. Libya'yı Türkiye'ye teslim ettiler. Filistin aynı şekilde. ABD zaten şu an kendi içindeki problemlerle uğraşıyor" dedi.

Ayrıca KSDP Lideri Rojava Kürdistanı'na yönelik de görüşlerini ise şu şekilde ifade etti:

"ABD ve İran Türkiye'nin operasyonuna razı değiller. Bildiğim kadarıyla Demokratik Birlik Partisi (PYD) Suriye rejiminden Rojava Kürdistanı sınırlarına dönmesi talebinde bulunmuş. Oradaki yönetim ABD ve Rusya'dan umutsuzlar. ABD'nin her an güçlerini çekme korkusundan dolayı Suriye'den böyle bir talepte bulundukları kanaatindeyim. Yoksa başka nasıl bir açıklaması olabilir ki bu durumun?" ***PeyamaKurd***

# Jina Emini protestolarında bir gösterici idam edildi!



İran ve Doğu Kürdistan'da Jina Emini'nin ölümü üzerine başlayan gösterilerle ilgili geçen haftalarda idama mahkum edilen bir kişinin cezasının infaz edildiği ifade edildi.

İran Yargı Erki'ne bağlı Mizan Haber Ajansına göre, ekimde Tahran'daki "Settar Han Caddesi'ndeki protestolar sırasında soğuk silahla vatandaşları tehdit ettiği ve bir güvenlik görevlisini yaraladığı" iddiasıyla Devrim Mahkemesi tarafından ölüm cezasına çarptırılan Muhsin Şikari adlı gösterici bu sabah idam edildi.

Haberde idam edilen kişinin, "ateşsiz silah taşımak, yolu kapatmak, araçları durdurmak, güvenliği ihlal etmek, milis güçlerle (Besic) çatışma, bir güvenlik görevlisini yaralama, korku ve dehşet salma gibi eylemlerle devlete karşı savaş açmak" suçlamasıyla 20 Kasım'da idama mahkum edildiği, daha sonra Yüksek Mahkeme tarafından da cezasının onaylandığı ifade edildi. Muhsin Şikari, Jina Emini protestolarıyla bağlantılı idam edilen ilk gösterici oldu. ***PeyamaKurd***

# Mesrur Barzani, Kürdistan Bölgesi ve Irak'taki ilk İngiliz üniversitesinin temelini attı

Başbakan Mesrur Barzani, başkent Erbil'de Uluslararası İngiliz Üniversitesi'nin temel atma törenini gerçekleştirdi.



Kürdistan Bölgesi ve Irak'ta bir ilk olma özelliği taşıyan Uluslararası İngiliz Üniversitesi'nin temel atma töreninde konuşma yapan Mesrur Barzani, "Kürdistan Bölgesi'nde öğrenim düzeyinin günden günde artmasını görmekten mutluluk duyuyorum. Bu tür bilim merkezlerinin kurulması, şüphesiz bilinç düzeyinin artmasına katkıda bulunacaktır" ifadelerini kullandı.

Merkezi Londra'da bulunan üniversitenin bir kolu olacağını kaydeden Başbakan, "Kürdistan Bölgesi'nde öğrenim ve bilim alanında daha fazla hizmet sunulmasını umuyorum. Şüphesiz bu tür bilimsel kuruluşlar bilinç, bilim ve akademik düzeyin de yükselmesini sağlayacaktır. Bu projede katkısı bulunan kişi ve kurumlara teşekkür ediyorum" dedi. Kürdistan'daki her üniversitenin kendi alanında uzmanlık ve imkanlarıyla toplumda olumlu etkisinin olduğunu kaydeden Başbakan, kurulacak yeni üniversitenin de bu alanda iz bırakacağını belirtti.

Hükümet olarak bilimsel çalışmalara öncelik verdiklerini belirten Mesrur Barzani, eğitim öğretim sektöründe aralıksız bir şekilde ihtiyaçları karşılamaya devam edeceklerini kaydetti. Konuşmasında Bağdat'la olan görüşmeleride ele alan Başbakan, "Sorun yaşanan ya da uygun bir çözüm bulunmayan konularla ilgili heyetlerimiz sürekli olarak Bağdat'a ziyaretlerde bulunuyor. Umarım iki taraf, çözüme ulaşana kadar heyetler arası görüşmelerini sürdürürler. Hangi alanda olursa olsun bir sorunun çözümünün Kürdistan Bölgesi'ne yansıması olumlu şekilde olmaktadır. Bu yüzden durmayacağız, umudumuz da yüksek. Allah'ın izni ve sizlerin de desteğiyle hiçbir anayasal hakkımızdan taviz vermeden halkımızın hak ve ihtiyaçlarını temin edeceğiz" ifadelerine yer verdi. ***PeyamaKurd***

# BM'den İran'a tepki: İnfazları derhal durdurun!



İran'da protestolar nedeniyle alınan idam kararlarına uluslararası toplumdan tepkiler gelirken, bir tepki de BM'den geldi.

Birleşmiş Milletler (BM), İran'ın protestolar sırasında tutukladığı bir kişiyi idam etmesinin ardından infazların derhal durdurulması çağrısında bulundu. Basın açıklamasında bulunan BM Genel Sekreter Sözcüsü Stephane Dujarric, idam cezasına kesinlikle karşı olduklarını dile getirdi. "İran'da idam, hiçbir zaman yaşam hakkıyla örtüşmüyor"

BM Sözcüsü Dujarric açıklamasında şu sözlere yer verdi:

"BM İnsan Hakları Konseyine idamların derhal durdurulması gerektiği konusunda katılıyoruz. Anladığımız kadarıyla idam, hiçbir zaman yaşam hakkıyla örtüşmüyor." İdam cezasının uygulanmasına BM'nin kesinlikle karşı olduğunu belirten Dujarric, İran'a idamları derhal durdurması çağrısında bulundu. İran Yargı Erki'ne bağlı Mizan Haber Ajansına göre, ekimde başkent Tahran'daki "Settar Han Caddesi'ndeki protestolar sırasında soğuk silahla vatandaşları tehdit ettiği ve bir güvenlik görevlisini yaraladığı" iddiasıyla Devrim Mahkemesi tarafından ölüm cezasına çarptırılan Muhsin Şikari adlı gösterici bu sabah idam edildi. ***PeyamaKurd***

# Bağdat teyakkuza geçti



Irak'ın başkenti Bağdat'ta düzenlenebilecek olası bir gösteriye karşı güvenlik güçleri teyakkuza geçirildiğini duyurdu.

Söz konusu olaya yönelik Irak medyasında yer edinen habere göre Bağdat Operasyonlar Komutanlığı tarafından gönderilen yazıda, Kerh ve Resafe bölgelerine güvenlik güçlerinin konuşlandırılması talimatı verildi.

Şehirde gerçekleşecek olası bir gösteriye karşı 3 bin 600 güvenlik gücünün farklı bölgelerde önlem aldığı bildirildi.

